## Xankəndi-Laçın yolunda sülhməramlıların avtomobilləri maneəsiz keçib



**Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus daha 2 avtomobilin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.**

"Report"un aksiya keçirilən ərazidəki əməkdaşı xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz şəkildə hərəkət etməsi təmin olunub. Belə ki, 1 minik və 1 yük avtomobilli Laçından Xankəndiyə istiqamətinə maneəsiz hərəkət ediblər. Bununla da bu gün bu dəqiqələrə qədər Xankəndi-Laçın yolunda maneəsiz hərəkət edən Rusiya sülhməramlılarına məxsus avtomobillərin sayı 63-ə çatıb.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.




## AZAL Bakıdan Parisə uçuşları bərpa edir

**"Azərbaycan Hava Yolları" QSC (AZAL) mayın 9-dan Bakıdan Fransanın paytaxtı Parisə uçuşları bərpa edəcək.**

Bu barədə "Şərq"ə səhmdar cəmiyyətindən bildirilib. Məlumata görə, aviareyslər həftədə 2 dəfə - çərşənbə axşamı və cümə günləri həyata keçiriləcək.

Uçuş cədvəli ilə daha ətraflı aviaşirkətin rəsmi www.azal.az saytında tanış olmaq mümkündür.


№ 30 (5791) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 17 fevral 2023-cü il (cümə)






## Sumqayıtda hüzün

### Zəlzələdə həlak olan tələbə Gündüz Nəzərzadə dəfn edilib

**Türkiyədə baş vermiş zəlzələdə həlak olan azərbaycanlı tələbələrdən biri dəfn edilib.**

Trend bildirir ki, zəlzələ nəticəsində həlak olan Gündüz Nəzərzadə Sumqayıt şəhər qəbirstanlığında dəfn edilib.

Mərhumla evlərində vida mərasimi keçirilib.

Qeyd edək ki, fevralın 6-da Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ baş verib. Dərinliyi 7 kilometr olan zəlzələ 10 vilayətdə ciddi dağıntılara səbəb olub. Zəlzələdən zərər çəkmiş 10 vilayətdə üç ay müddətinə fövqəladə vəziyyət rejimi elan olunub. Həmçinin Türkiyədə bir həftəlik matəm elan olunub.

Türkiyədəki zəlzələdə 10 nəfər Azərbaycan vətəndaşı da həlak olub.



## İlham Əliyev Litva Prezidentini təbrik edib

### "Biz Litva ilə münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk"

**Azərbaycan ilə Litva arasında münasibətlər xoş ənənələrə malikdir və biz bu münasibətlərin inkişafına xüsusi əhəmiyyət veririk.**

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litva Respublikasının milli bayramı münasibətilə litvalı həmkarı Gitanas Nausedaya ünvanladığı təbrik məktubunda yer alıb.

"Keçən ay Sizinlə Davosda keçirdiyimiz görüşü və apardığımız fikir mübadiləsini məmnunluqla xatırlayıram. Hesab edirəm ki, hazırda ölkələrimiz arasında müxtəlif sahələr üzrə münasibətlərin genişlənməsi, əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkanlar formalaşmışdır", - məktubda belə deyilir.

Dövlətimizin başçısı Azərbaycan-Litva münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində bundan sonra da inkişaf edəcəyinə və möhkəmlənəcəyinə inamını ifadə edib, dost Litva xalqına daim əmin-amanlıq və rifah arzulayıb.

## "Azərbaycanlı qardaşlarımızı unutmayacağıq"

### Əminə Ərdoğan Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya təşəkkür edib.**

Bu barədə Əminə Ərdoğan tvitter hesabında paylaşım edib. "Sizin dərdiniz bizim dərdimizdir" deyən azərbaycanlı qardaşlarımızı unutmayacağıq. İlk gündən humanitar yardım təyyarələri ilə, xüsusilə də axtarış-xilasetmə qrupları ilə bizimlə olan Azərbaycana və dəyərli dostum Mehriban Əliyevaya dəstəyə görə təşəkkürümü bildirirəm", - deyə paylaşımda qeyd edilib.

# NATO Türkiyəyə dəstək verəcək

### Baş katib zəlzələni alyans torpaqlarında baş verən ən qorxunc fəlakət adlandırdı



**NATO-nun baş katibi Yens Stoltenberq həmrəyliyini nümayiş etdirmək üçün Türkiyəyə səfər edib. Baş katib deyib ki, Türkiyədəki zəlzələ NATO-nun qurulmasından bəri bizim alyansımızın torpaqlarında ən ölümcül, ən qorxunc fəlakətdir.**

O qeyd edib ki, NATO müttəfiqləri zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Türkiyəyə dəstəyini davam etdirir. Stoltenberq əlavə edib ki, Niderland, Böyük Britaniya, ABŞ və Norveçin təmin etdiyi hərbi təyyarələr təbii fəlakət bölgəsinə beynəlxalq yardımların çatdırılması məqsədilə gecə-gündüz fəaliyyət göstərirlər.

NATO baş katibi Yens Stoltenberq bildirib ki, Quran kimi müqəddəs bir kitabın yandırılmasını utancverici hərəkət sayır...

(səh.2)

## Bakıya sülh müqaviləsinin mətni təklif olunub

### Sənəd həmçinin ABŞ, Fransa və Rusiyaya da göndərilib



**Ermənistan Baş naziri Nikol Paşinyan hakim "Mülki müqavilə" Partiyasının nümayəndələri ilə gecə saatlarında təcili toplantı keçirib.**

Görüş təxminən bir saat davam edib. Təfərrüatlar barədə ətraflı məlumat verilməsə də, təcili görüşün səbəbinin Azərbaycanla bağlı olduğu deyilib. "Joxovurd" qəzetinin məlumatına görə, görüşdə Azərbaycanın sülh müqaviləsinin mətni ilə bağlı son təkliflər müzakirə edilib.

Paşinyan və hakim partiya üzvləri bu barədə fikir mübadiləsi aparıblar.

(səh.4)



## ABŞ generalından xəbərdarlıq

### İran neft obyektlərinə hücum edəcək!

**ABŞ-ın Yaxın Şərqdəki Hərbi Hava Qüvvələrinin komandanı İranın Amerika qüvvələrinə və regiondakı neft obyektlərinə hücum planları barədə xəbərdarlıq edib.**

Axar.az xəbər verir ki, bu barədə general Aleks Qrinkoviç açıqlama yayıb.

"Hazırkı vəziyyətdə İranın diqqəti Amerika, Suriyadakı beynəlxalq koalisiya qüvvələrinə, dənizdə olan hədəflərə və regiondakı neft infrastrukturuna hücum etməyə yönəlib", - açıqlamada deyilir.

## Koronavirusdan iki nəfər ölüb

### Son sutkada 17 yeni yoluxma faktı qeydə alınıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 17 yeni yoluxma faktı qeydə alınıb, 33 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, xəstəlikdən iki nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 828 292 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 818 071 nəfər müalicə olunaraq sağalıb, hazırda 120 aktiv xəstə var. Bu günə qədər 10 101 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 480, bu günə qədər isə ümumilikdə 7 510 900 test icra olunub.*

## Türkiyədə zəlzələdə həlak olan Şahin Vəliyev Gəncədə dəfn olunub



**Türkiyənin Malatya şəhərində zəlzələ nəticəsində uçan binanın dağıntıları altında qalaraq həlak olan Şahin Vəliyev dəfn olunub.**

"Report"un Qərb bürosunun məlumatına görə, mərhum Gəncənin Səbiskar qəbiristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində Ş.Vəliyevin yaxınları, dostları, şəhər icra hakimiyyətinin, digər dövlət qurumlarının təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



## Bələdiyyələrin nüfuzu ölkəmizdə gözdən salınıb

### Müzakirələrdə yerli özünüidarə qurumlarının həqiqi problemlərindən söz açılmayıb

(səh.2)



## Lavrovun səfəri heç nəyi dəyişməyəcək

### Moskva da danışıqlarda kimin vasitəçi olmasını müəyyən edən tərəfin Azərbaycan olduğunu anlayıb

(səh.5)

# NATO Türkiyəyə dəstək verəcək

Baş katib zəlzələni alyans torpaqlarında baş verən ən qorxunc fəlakət adlandırdı



**NATO-nun baş katibi Yens Stoltenberq həmrəyliyini nümayiş etdirmək üçün Türkiyəyə səfər edib. Baş katib deyib ki, Türkiyədəki zəlzələ NATO-nun qurulmasından bəri bizim alyansımızın torpaqlarında ən ölümcül, ən qorxunc fəlakətdir.**

O qeyd edib ki, NATO müttəfiqləri zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Türkiyəyə dəstəyini davam etdirir. Stoltenberq əlavə edib ki, Niderland, Böyük Britaniya, ABŞ və Norveçin təmin etdiyi hərbi təyyarələr təbii fəlakət bölgəsinə beynəlxalq yardımların çatdırılması məqsədilə gecə-gündüz fəaliyyət göstərirlər.

**"Quranın yandırılmasını utancverici hərəkət sayıram"**

NATO baş katibi Yens Stoltenberq bildirib ki, Quran kimi müqəddəs bir kitabın yandırılmasını utancverici hərəkət sayır: "Quranın yandırılmasının Türkiyədə çox ciddi reaksiyalara səbəb olması barədə məlumatım var və bu reaksiyaları anlayışla qarşılayıram. Mən şəxsən belə bir müqəddəs kitabın yandırılmasını utancverici əməl sayıram. Türkiyədəki və dünyadakı müsəlmanların hiddətini başa düşürəm və bu səbəbdən də bu addımı qınayıram. Həmçinin düşünürəm ki, İsveç hökumətinin bu və bu kimi əməllərin qarşısını alması zəruridir. İsveç hökuməti və Baş nazirinin bu addımları qınamasının müsbət olduğunu düşünürəm. Əlbəttə, utancverici, qeyri-əxlaqi və ya təxribatçı bütün davranışlar qeyri-qanuni deyil".

**"NATO üçün terrorçuluqla mübarizə ən önəmli məsələlərdən biridir"**

NATO Baş katibi Türkiyəni İsveç və Finlandiyanın alyansa üzvlüyünü təsdiqləməyə çağırıb: "Türkiyənin İsveç və Finlandiyanın NATO-ya üzvlüyünü təsdiqləməsinin vaxtının çatdığını düşünürəm. Türkiyənin də son dərəcə legitim təhlükəsizlik narahatlıqlarının olduğunu bilirəm. Heç bir müttəfiqin də bu ehtiyacları görməzlikdən gəldiyini düşünmürəm. NATO üçün terrorçuluqla mübarizə ən önəmli məsələlərdən biridir". Stoltenberq əlavə edib ki, İsveç və Finlandiyanın da alyansa daxil olması NATO-nun terrorçuluğa qarşı mübarizəsini gücləndirəcək: "Hazırda əsas məsələ İsveç və Finlandiyanın NATO-ya eyni vaxtda üzvlüyü deyil, əsas məsələ onların hər ikisinin ən qısa müddətdə üzv olmasıdır".

**"Türkiyə NATO-ya ən çox töhfə verən ölkələrdən biridir"**

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Ankara hər zaman NATO-nun güclənməsindən yanadır. Onun sözlərinə görə, NATO-ya üzvlüklə bağlı həm İsveç, həm də Finlandiyanın atmalı olduğu addımlar var. Xüsusən də İsveç addımlar atmalıdır. O bildirib ki, son zamanlardakı təxribatlar, xüsusilə də İsveçdə baş vermiş təxribat heç faydalı olmayıb: "Amma nəticədə Türkiyə olaraq biz hər zaman NATO-nun güclənməsindən yanayıq. Türkiyə NATO-ya ən çox töhfə verən ölkələrdən biridir. NATO-nun daha da güclənməsi üçün biz Türkiyə olaraq, önəmli bir müttəfiq olaraq NATO fəaliyyətlərinə dəstəyimizi verməyə davam edəcəyik. Bildiyiniz kimi biz NATO-nun fəaliyyətlərinə və missiyalarına ən çox töhfə verən ilk beş ölkədən biriyik. Ümumi büdcəyə də ən çox töhfə verən 8 ölkədən biriyik".

**"İsveç İŞİD-in təbliğatına icazə vermədiyi kimi, PKK-ya da icazə verməməlidir"**

XİN başçısı vurğulayıb ki, İsveç üçtərəfli razılaşmadan qaynaqlanan öhdəlikləri tam yerinə yetirməyib: "Türkiyə İsveç tərəfindən istənilən konkret addımların atıldığını görmür. İsveç və Finlandiya NATO-ya üzvlüklə bağlı bəzi addımlar atıb, biz bunu inkar etmirik. Müsbət addımları müsbət qarşılayırıq. Lakin xüsusilə də İsveçin üçtərəfli razılaşmadan qaynaqlanan öhdəliklərini tam yerinə yetirdiyini demək realist yanaşma olmaz. Hazırda istədiyimiz konkret addımları görmürük".

**"İŞİD-in təbliğatına icazə vermirlərsə, PKK-ya da icazə verilməməlidir"**

Mövlud Çavuşoğlu qeyd edib ki, İsveçdə qanunlar sərtləşdirilsə də, PKK və YPG-nin özlərinə tərəfdar yığmaq fəaliyyətləri, terrorçuluğun maliyyələşdirilməsi, eləcə də terrorçu liderlərin təbliğatı istiqamətində fəaliyyətləri davam edir: "Nəticə etibarilə bu qanunları bizi sözlə məmnun etmək üçün qəbul etməyiblər, verdikləri sözü tutub onların qarşısını almaq üçün qəbul ediblər. Bu qanunların tələblərini yerinə yetirmək məcburiyyətindədirlər. Necə ki, İŞİD-in təbliğatına icazə vermirlərsə, PKK-ya da icazə verilməməlidir".

**İsmayıl**

# Bələdiyyələrin nüfuzu ölkəmizdə gözdən salınıb

## Müzakirələrdə yerli özünüidarə qurumlarının həqiqi problemlərindən söz açılmayıb



**Milli Məclisin Regional məsələlər komitəsinin iclasında bələdiyyələrin müzakirəsi zamanı müxtəlif təkliflər səsləndirilib. Bəzi deputatlar bələdiyyələrə əlavə səlahiyyət verilməsini, müxtəlif sahələrə nəzarətin bələdiyyələrə həvalə olunmasını, dotasiyaların ayrıseçkilik edilmədən bütün bələdiyyələrə eyni məbləğdə paylanmasını istəyiblər.**

İclasda çıxış edən ədliyyə nazirinin müavini Vilayət Zahirov isə bildirib ki, bələdiyyələrlə bağlı ən mühüm problem maliyyə resurslarının zəif olmasıdır. Onun sözlərinə görə, qanunvericilikdə bununla bağlı imkanlar var, lakin bələdiyyələr imkanlardan düzgün istifadə edə bilmirlər: "Maliyyə resurslarının zəif olmasının səbəblərindən biri bələdiyyə ərazilərindəki vergi obyektlərinin siyahısının olmamasıdır. Bu siyahı olarsa, həmin obyektlərdən vergilər yığılar, bələdiyyələrin maliyyə imkanları yaxşılaşar. Son illərdə xeyli irəliləyiş var. Əvvəl bələdiyyə üzvlərindən sadəcə, biri ali təhsilli olurdu. Hətta az sayda bələdiyyə sədrlərinin orta təhsildən də aşağı təhsil səviyyəsi olurdu. Hazırda demək olar ki, çox az sayda təhsili olmayan bələdiyyə üzvü tapılar. Birdən-birə bələdiyyələrə böyük səlahiyyətlərin verilməsi yanlış olar. Zamanla bunu həll etmək olar". Nazir müavini qəbiristanlıqların bələdiyyələrə verilməsi məsələsinə də toxunub: "Qəbiristanlıqların bələdiyyələrə verilməsi başa çatdırılmayıb. Bunun da bir çox səbəbləri var". Deputat Siyavuş Novruzov dotasiyaların eyni bələdiyyələrə verildiyini deyib. Deputat Tahir Rzayev isə bildirib ki, bələdiyyələrdən 2-3-ü birləşib uşaq bağçası aça bilər. Parlament üzvü Kamran Bayramov bələdiyyələrin icra aparatlarında əməkdaşların sayının şişirdilməsindən bəhs edib.

**AVCİYA-nın eksperti, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında bildirib ki, Milli Məclisdə nazir müavini səviyyəsində bələdiyyələr müzakirə olunsa da, yerli özünüidarə qurumlarının həqiqi problemlərindən söz açılmayıb. Ekspert vurğulayıb ki, əsas problemlər kənarda qalır, boş, mənasız məqamları gündəmə gətirirlər:** "Elə bələdiyyə üzvü var ki, ali təhsili yoxdur, amma kəndi, rayonu üçün vacib işlər görür. Yaxud əksinə, ali təhsilli bələdiyyə üzvü var və əhali üçün heç bir faydalı xidmət göstərmir. Səlahiyyətli qurumların nümayəndələri sadəcə söz demək xatirinə danışırlar. Bələdiyyələrin əsas və ciddi problemləri, çatışmazlıqları başqadır. Bələdiyyə sistemi Avropa Şurasının Azərbaycan hökuməti qarşısında qoyduğu öhdəliklərdən biridir. Tələb odur ki, hər rayonda, qəsəbə və kənddə yerli özünüidarə formalaşmalıdır. Bu, demokratiyanın göstəricisi sayılır və bütün Qərb ölkələrində artıq təsdiqini tapıb. Avropa Şurasının tələbindən irəli gələrək 1999-cu ildən bələdiyyələrin yaradılmasına başlandı. Əslində Azərbaycan xalqı tarixən, qədim dövrdən etibarən bələdiyyə sisteminə bənzər prosesi özü icra edib. Hansısa küçədə, məhəllədə, kənddə bir problem yaranıbsa, yerli sakinlər oranın ağsaqqalının yanına gedərək, problemin həlli üçün onu vəzifələndirib. Ağsaqqal da müvafiq yerlərə müraciət edərək, yaxud pul toplayaraq yaranmış problemi aradan qaldırıb. Ancaq Azərbaycanda yaradılmış bələdiyyələr cəmiyyətin tələbindən yox, AŞ-nin tələbindən ortaya çıxıb. Belə demək mümkünsə, "ölü doğulmuş uşaq" kimi olub".

Elə bələdiyyə üzvü var ki, ali təhsili yoxdur, amma kəndi, rayonu üçün vacib işlər görür. Yaxud əksinə, ali təhsilli bələdiyyə üzvü var və əhali üçün heç bir faydalı xidmət göstərmir

*M.Zülfüqarlı bildirib ki, əslində dünya ölkələrində bələdiyyə çox nüfuzlu qurumdur:* "İki forması var - Amerikan və fransız forması. ABŞ-də prezident ancaq xarici siyasətlə məşğuldur. Ölkənin idarəsi kiçik qəsəbədən tutmuş böyük ştatlara qədər yerli özünüidarə ilə həyata keçirilir. İdarəetmə saat mexanizmi kimi işləyir və yerlərdə problemlər tez müddətdə, kənara çıxmamış həll edilir. Əhali də məmnunluqla vergilərini ödəyir. Azərbaycanda isə fransız formasıdır. Bizdə yerlərdə bələdiyyə ilə yanaşı, həm də prezidentin nümayəndəsi, yəni icra hakimiyyətləri var. Əsas problem də burda yaranır. Azərbaycanda bələdiyyələrin işləməsinə mane olanlar icra hakimiyyətləridir. İcra hakimləri özlərini şah, xan hesab edirlər və bələdiyyələri də öz strukturlarında bir şöbə kimi görürlər. Halbuki qanuna görə, icra və bələdiyyə yerlərdə bir-birindən asılı olmayan iki müstəqil qurum olmalıdır. Birinin rəhbərini prezident təyin edir, digərini isə xalq seçir. İkisinin də məqsədi yerli sakinlərə xidmət göstərməkdir. Lakin açıq-aşkar olan odur ki, icra başçıları əhaliyə xidmət etmir. Hansını tuturlar, kabinetindən, evindən milyonlar çıxır. Bələdiyyələrin az səlahiyyətlərinin icrasına belə imkan verilmir. Çünki icra hakimləri bələdiyyələrə öz adamlarını seçdirirlər və onlara əmrlər verirlər. Rayonda icra başçısı dəyişən kimi dərhal bələdiyyələrdə yoxlama başlayır, cinayət işi açılır. Yəni yerlərdəki problemlərin günahı bələdiyyələrin üzərinə atılır".

**Ekspertin sözlərinə görə, dünyanın hər yerində çox nüfuzlu olan bir strukturu ölkəmizdə gözdən salıblar:** "Bələdiyyələrin dilənçi vəziyyətinə salınması yolverilməzdir və xalqımıza hörmətsizlikdir. Vətəndaş vergini ona görə verir ki, problemləri həll olunsun, xidmət görsün. Əgər yerlərdə insanların çətinliyi aradan qalxmayıbsa, niyə bələdiyyələrə pul ödəməlidir?! Tutaq ki, deputatın dediyi kimi, qəbiristanlıqlar bələdiyyələrə verildi. Nə dəyişəcək? O dəyişəcək ki, icra hakimiyyətləri bələdiyyələrə məzarlıqlardan da pul yığmağı tapşıracaq. Normal bələdiyyənin formalaşması üçün icra hakimiyyətlərindən asıllıq ləğv olunmalıdır. Bələdiyyələrə verilən səlahiyyətlər eyniylə icra hakimiyyətlərində də olmamalıdır. İki qurum bir-birinin işinə müdaxilə etməməlidir. Əgər hansı bələdiyyə normal işləməzsə, əhali gələn dəfə başqa namizədə səs verər. Rayonlarda, kəndlərdə bələdiyyə bütün səlahiyyətlərini sərbəst icra edərsə, müstəqil işləmək imkanı olarsa, zamanla heç icra hakimiyyətlərinə ehtiyac qalmaz. Bələdiyyələrin nüfuzu artarsa, insanların da həmin quruma etimadı, inamı artar".

**İsmayıl Qocayev**



# Maraqlı tərəf yenə Fransadır

## Münhendə İlham Əliyevlə Paşinyanın görüşü gözlənilir

**"17-19 fevralda keçiriləcək Münhen Təhlükəsizlik Konfransında Azərbaycan dövlət başçısı İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın da iştirakı gözlənilir".**

Bu barədə siyasi şərhçi Asif Nərimanlı deyib. Ekspert bildirib ki, bu, ikitərəfli görüşün və növbəti debatın keçirilə biləcəyi məsələsini də gündəmə gətirir: "44 günlük müharibədən öncə - 2020-ci ilin fevralında Münhendə tərəflərin debatı təşkil olunmuşdu. Prezident İlham Əliyevin açıq üstünlüyü və Paşinyanın məşhur "kokeyşn büro" söhbəti ilə yadda qalan debat həm də Azərbaycan və Ermənistan liderlərinin beynəlxalq ictimaiyyət önündə ilk açıq müzakirəsi idi. Həmin vaxt Bakı Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından debatda maraqlı tərəf idi. İndi isə "Qarabağdakı ermənilər "humanitar fəlakət"lə üzləşib" iddialarını yaymaq baxımından Ermənistan debatın təşkilini istəyə bilər. Hərçənd dövlət başçısı İlham Əliyevlə üzüzə gələrsə, Paşinyanın yenidən çətin vəziyyətə düşməsi qaçılmaz olacaq".

Analitikə görə, Münhendə Azərbaycan Prezidenti İlham Əliyevlə Nikol Paşinyanın ikitərəfli görüşünün keçirilməsində maraqlı tərəf Fransadır: "Mümkündür ki, Makron belə bir görüşün baş tutması ilə "vasitəçiliyi"ni bərpa etməyə və Fransanın Cənubi Qafqazda aktiv rol oynadığını nümayiş etdirməyə çalışacaq. Türkiyə (zəlzələyə görə) və Rusiyanın liderlər səviyyəsində iştirak etməyəcəyi Münhendə özünü göstərmək baxımından da Makron üçün fürsətdir. Lakin belə bir görüşün baş tutub-tutmayacağında həlledici sözü yenə dövlət başçısı İlham Əliyev deyəcək".

**İsmayıl**

# Əl-Ədl terroru İrandan idarə edir

## Mümkündür ki, ABŞ Əfqanıstan ssenarisini İranda tətbiq etmək istəyir



**ABŞ Seyf Əl-Ədlin İranda olması ilə bağlı BMT-nin hesabatını təsdiqləyir. Bunu Amerika Dövlət Departamentinin sözçüsü Ned Prays mətbuat konfransında deyib. Prays bunun İranın terrorizmi dəstəkləməsinə daha bir nümunə olduğunu bildirib.**

"Əl-Qaidə üçün təhlükəsiz sığınacaq təmin etmək İranın Yaxın Şərqdə və onun hüdudlarından kənarda sabitliyi pozan terrorizmə geniş dəstəyinin bariz nümunəsidir".

**PolitoloqTuran Rzayev "Şərq"ə deyib ki, Seyf Əl-Ədl "Əl-Qaidə" terror təşkilatının faktiki lideri olaraq tanınıb. Onun sözlərinə görə, BMT-yə üzv dövlətlərin kəşfiyyat məlumatlarına əsaslanan yeni hesabatında bu haqda məlumat öz əksini tapıb:** "Prinsip etibarilə Əl-Ədl Birləşmiş Ştatların "Əl-Qaidə" lideri Ayman Əl-Zəvahirini Əfqanıstanın paytaxtı Kabildə hava hücumu zamanı öldürməsindən altı ay sonra terror qruplaşmasının rəhbərliyinə gətirildiyi məlum idi. Lakin bu informasiya bu günə qədər rəsmi olaraq təsdiqlənməmişdi. Əl-Ədl ilə bağlı ən diqqətçəkən məqam isə onun hazırda İranda olmasıdır. Seyf Əl-Ədl prinsip etibarilə sələfləri Ayman Əl-Zəvahiri və Üsamə bin Ladendən təhlükəli hesab edilir. Rəsmi Vaşinqton və Qərb agentləri uzun müddətdir ki, Əl-Ədlə Əl-Zəvahirinin ehtimal varisi kimi baxıb. Onun hazırda "Əl-Qaidə" lideri olması ABŞ üçün heç də arzuolunan bir hal deyil. Məsələ ondadır ki, Əl-Ədl professional hərbçi, Misirin keçmiş xüsusi təyinatlılar zabitidir. Bundan başqa o, 1990-cı illərin əvvəlindən başlayaraq Əfqanıstan, Pakistan və Sudandakı döyüşçülərə hərbi və kəşfiyyat təlimləri verən komandanın üzvü olub. Onu Vaşinqton üçün kabusa çevirən əsas məqam isə şübhəsiz, 1992-1994-cü illərdə Somalidə, Moqadişuda ABŞ qüvvələrinə qarşı döyüşməsidir. Eyni zamanda "Əl-Qaidə"nin Misir qolu olan "Misir İslami Cihad"ın və somalililərin təlimlərinə yardım edən Əl-Ədli ABŞ üçün çox təhlükəli hesab edilir. "Əl-Qaidə"nin yeni liderinin qruplaşmanı İrandan idarə etməsi üçün ABŞ üçün daha ciddi problemlər yarada bilər".

Ekspert vurğulayıb ki, Seyf Əl-Ədlin "Əl-Qaidə" terror təşkilatını İrandan idarə etməsi ABŞ-nin həm bu ölkəyə aviazərbələr endirməsi, həm də hərbi müdaxilə etməsi üçün əsas yaradır: "Məsələ ondadır ki, 2001-ci il 11 sentyabr hücumlarından sonra Əfqanıstanda "Taliban" hökuməti "Əl-Qaidə" terror qrupuna sığınacaq verdi. ABŞ isə ilk olaraq "Əl-Qaidə"nin Əfqanıstandakı təlim obyektlərini bombaladı. Daha sonra isə Vaşinqtonun Əfqanıstana müdaxiləsi və yerli əfqan qəbilələrin dəstəyi ilə "Taliban" hakimiyyəti devrildi. Mümkündür ki, ABŞ Əfqanıstan ssenarisini İranda tətbiq etmək istəyir. Əl-Ədlin İranda olması Vaşinqtonun ilkin olaraq Əfqanıstandakı kimi İranın bir sıra strateji hədəflərinə zərbələr endirməsi ilə müşahidə edilə bilər. Vaşinqton ilk olaraq Tehrandan Əl-Ədlin ona verilməsini istəyə bilər. Tehran bu istəyə mənfi cavab verəcəyi təqdirdə ABŞ İrana hərbi müdaxilə üçün ciddi əsas əldə etmiş olacaq".

**İsmayıl**



# Biz Ermənistandan sülh bəyanatları çox eşitmişik

## Səməd Seyidov: “Ancaq reallıq onu əks etdirir ki, İrəvan prosesi uzatmaq niyyətindədir”

**”Fevralın 15-də Ermənistan Azərbaycanla sülh müqaviləsi üzərində apardığı işin növbəti mərhələsini başa vurub, eyni zamanda bu təklifləri Bakıya təqdim etmişik”.**

**Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.**

Nikol Paşinyan həmçinin qeyd edib ki, sənəd ATƏT-in keçmiş Minsk qrupunun həmsədr ölkələrinə də təhvil verilib.

”Biz layihə üzərində belə bir məntiqlə işləyirik: istənilən vaxt imzalamağa hazır olan sənəd hazırlayaq. Aydındır ki, sənəd Azərbaycan üçün də məqbul olmalıdır. Lakin biz ümid edirik ki, danışıqların üç fazası ərzində əldə edilmiş proqresin bir hissəsini inkişaf etdirmək mümkün olacaq”, - deyə Nikol Paşinyan qeyd edib.

Nikol Paşinyan əlavə edib ki, imzalanacaq sənəd davamlı sülhə gətirib çıxarmalıdır və gələcəkdə bu müqavilə hansısa yeni müharibəyə çevrilməməlidir. Paşinyan etiraf edib ki, səsləndirdiyi sonuncu variant absurd səslənir, lakin onun başvermə ehtimalı mümkündür.

Paşinyan şəxsən özünün və Ermənistan hökumətinin sülh sazişini mümkün qədər tez imzalamağa hazır olduğunu da bəyan edib.

Qeyd edək ki, daha əvvəl Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Azərbaycandan sülh müqaviləsi ilə bağlı təkliflər aldıqlarını bildirmişdi.

Fevralın 14-də isə Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bəyan edib ki, Ermənistan Azərbaycan ilə sülh müqaviləsinin mətni üzərində işləyir və onu yaxın zamanda təhvil verəcək.

Məsələni ”Şərq”ə dəyərləndirən millət vəkili, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qeyd edib ki, Ermənistanın sülh müqaviləsini gündəmə gətirməsi və məsələyə nə dərəcədə səmimi yanaşması xüsusi təhlil olunmalıdır: ”Biz çox bəyanatlar və sülh barəsində söhbətlər görmüşük. Ancaq reallıq onu əks etdirir ki, Ermənistan prosesi uzatmaq və əsas məsələlərdən danışmamaq niyyətindədir.

> “Biz səbirlə gözləməliyik ki, görək rəsmi İrəvan atdığı addımlarda nə qədər səmimidir”

Bu səbəblə də hadisələri müşahidə etmək lazımdır. Nəzərə alsaq ki, beynəlxalq səviyyədə konfranslar olacaq, Cənab Prezident və Paşinyan da həmin görüşlərdə iştirak edəcəyini bəyan ediblər.

Yəqin ki, bu görüşlərdən və çıxışlardan sonra Ermənistanın mövqeyi haqqında daha dəqiq danışmaq olar. Bu gün isə onlar vaxtı uzatma və real sülhdən qaçmaqla məşğul olurlar.

Son hadisələr onların Ermənistanın gələcəyinin Azərbaycan və Türkiyə ilə bağlı olduğunu başa düşdüklərini göstərir. Lakin biz səbirlə gözləməliyik ki, görək rəsmi İrəvan atdığı addımlarda nə qədər səmimidir”.

**Nihat Müzəffər**

# "Media savadlılığı artmasa, yaxşı nəticə əldə edə bilməyəcəyik"

## Əhməd İsmayılov: ”Bu, həmçinin dezinformasiyaların yayılmasının qarşısının alınmasında mühüm rol oynayır”

**”Media islahatları bir çox istiqamətləri əhatə edir. Bunlardan ən vacibi də cəmiyyətlə düzgün kommunikasiyanın təşkil edilməsidir”. Bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov Elm və Təhsil Nazirliyinin Medianın İnkişafı Agentliyi ilə birgə keçirdiyi ”Effektiv kommunikasiya” mövzusunda təlim-seminarda deyib. O bildirib ki, dünyada artıq media savadlılığı sahəsində çox güclü işlər görülməkdədir:**






”Media savadlılığı artmasa, nə qədər doğru-düzgün informasiya istehsal etsək, nə qədər düzgün kommunikasiya yaratsaq, yaxşı nəticə əldə edə bilməyəcəyik. Bu, həmçinin dezinformasiyaların yayılmasının qarşısının alınmasında mühüm rol oynayır”.

**“Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin yaranmaması işləri gecikdirir”**

İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru Rasim Əliquliyev deyib ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin yaranmaması işləri gecikdirir: ”Bir qrup institutun veb-saytlarını yeniləməməsinin əsas səbəbi maliyyə ilə bağlıdır”.

O bildirib ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin yaranmaması da bu işləri gecikdirir: ”Yaxşı olardı ki, nazirlik bu saytların vahid mərkəzdən yaradılmasına dəstək versin. Həmçinin loqoların yenilənməməsi ilə bağlı problem də bu məsələlərdən qaynaqlanır”.

**Media savadlılığının inkişaf etdirilməsi mənfi nəticələri minimuma endirmək üçün əsas alətlərdəndir**

Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova bildirib ki, media savadlılığının inkişaf etdirilməsi mənfi nəticələri minimuma endirmək üçün əsas alətlərdəndir: ”Media savadlılığı kütləvi informasiyanın məzmunu, onun ötürülməsi və istehlakı üzrə biliyə sahib olma, tənqidi dəyərləndirmə, müxtəlif kontekstlərdə istifadə etmə və təhlil aparma qabiliyyətidir”. Onun sözlərinə görə, media savadlılığı bacarıqlarının artırılmasının məqsədi məlumat istehsalı və istehlakı proseslərində savadlılıq anlayışının müasir dövrün tələblərinə uyğunlaşdırılmasını, ölkə üzrə media savadlılığı göstəricilərinin yüksək səviyyəyə çatdırılmasını, eləcə də sağlam media mühitinin inkişafını və cəmiyyətdə məlumat təhlükəsizliyini təmin etməkdir: ”Rəqəmsal dövrdə həm insanların ictimai şüurunda informasiyanın tutduğu yeri, həm də informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin həyatında olan əhəmiyyətli rolunu nəzərə alaraq, müasir informasiya məkanında məlumatlara əlçatanlığın asanlaşması, cəmiyyətin məlumatın obyektiv tərəfini müəyyənləşdirməkdə çətinliklərlə qarşılaşması və nəticədə istehlakçının özləri də fərqinə varmadan saxta məlumat və faktların, mülahizələrin istehsalçısına çevrilməsi, məlumat axınının məqsədli şəkildə yanlış tərzdə interpretasiya olunması, dezinformasiyaların yaradılması və yayılması media savadlı istehlakçıların yetişdirilməsinə ciddi zərurət yaradır. Ümumiyyətlə, media savadlılığının inkişaf etdirilməsi medianın mənfi nəticələrini minimuma endirmək, rəqəmsal platformalarda iştirakın potensial zərərli təsirlərini azaltmaq, eləcə də gənclərə rəqəmsal dünyada tənqidi istehlakçılar və yaradıcılar olmağa kömək etmək üçün ən əsas alətlərdəndir”.

**İsmayıl**



# Dağıntılar təmizlənir

## Kahramanmaraşın bir hissəsində xilasetmə işləri yekunlaşıb

### AYİB zəlzələnin Türkiyə iqtisadiyyatına təsiri ilə bağlı ilkin proqnozunu açıqlayıb

**Türkiyədə zəlzələ nəticəsində ölənlərin sayı 36 mini keçib. Təbii fəlakət zamanı yaralanan şəxslərin sayı isə 108 min 068 nəfərdir. Zəlzələ bölgəsindən təxliyə olunanların sayı 216 min 347 nəfərə çatıb. Zəlzələdən zərər çəkənlərə yardım toplamaq məqsədilə ötən gün Türkiyə və dünyadan 213 televiziya və 562 radionun iştirakı ilə ”Türkiyə - tək ürək” kampaniyası keçirilib. Kampaniya çərçivəsində toplanan vəsait 115 milyard lirəni keçib.**

**Türkiyədə zəlzələdən sonra 4000 afterşok qeydə alınıb**

Türkiyədə 6 fevralda baş vermiş zəlzələdən sonra afterşoklar davam edir. Zəlzələlərdən sonra ümumilikdə 4000 afterşok qeydə alınıb. Türkiyədə dünəndən etibarən axtarış-xilasetmə işləri ilə yanaşı, ağır texnika vasitəsi ilə dağıntıların aradan qaldırılması prosesinə də başlanıb. Prosesdən öncə dağıntılardan nümunələr götürülür, ardından isə artıq zəlzələ nəticəsində yaranan dağıntılar təmizlənir.

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) zəlzələnin Türkiyə iqtisadiyyatına ilkin təsirləri ilə bağlı proqnozunu açıqlayıb. Qeyd edilib ki, zəlzələnin ümumi iqtisadi fəaliyyətə təsiri ilə bağlı hər hansı qəti proqnozlar vermək çox tezdir. AYİB bununla belə hesab edir ki, ağlabatan qiymətləndirmə zəlzələnin bu il Türkiyə iqtisadiyyatının ÜDM-nin 1 faizi həcmində itkiyə səbəb olacağını deməyə əsas verir: ”Yenidənqurma səylərinin ilin son aylarında tədarük zəncirlərinə və infrastruktura dəyən zərərin mənfi təsirini qismən kompensasiya etməsi gözlənilir”.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, Türkiyənin zəlzələ bölgəsində axtarış-xilasetmə işlərində fəaliyyət göstərən ölkə sayı 74, heyət sayı isə 7098 nəfərdir. Nazir qeyd edib ki, bəzi ölkələr Türkiyədə axtarış-xilasetmə işlərini tamamlayıb: ”Hazırda ölkəmizə axtarış-xilasetmə işləri üçün heyət göndərəcək ölkələr də var, gözlənilən heyət sayı isə 439 nəfərdir. Zəlzələ bölgəsində işlərini tamamlayıb ölkəmizi tərk edən ölkə sayı 15, heyət sayı isə 4236 nəfərdir. Mən bu ölkələrə və onların heyətlərinə ayrı-ayrılıqda təşəkkür edirəm”, - o deyib.

Türkiyənin İnsan Hüquqları, Azadlıqları və Humanitar Yardım Vəqfinin nümayəndəsi Məhəmməd Həmzə Nedimoğlu deyib ki, Kahramanmaraş zəlzələdən ən çox zərər görən bölgədir: ”Burada yüzlərlə belə bina dağılıb. Hazırda burada onlarla heyət axtarış-xilasetmə işləri görür. O cümlədən İHH Humanitar Yardım Vəqfinin axtarış-xilasetmə heyətinin tərkibində azərbaycanlı tələbə də var. Artıq bu gündən etibarən bu ərazidə işlərimizi yekunlaşdırırıq”.

Azərbaycanın Türkiyədəki səfirliyindən bildirilib ki, Türkiyədə zəlzələ bölgəsində olan 2 azərbaycanlıdan məlumat yoxdur: ”Bir çox vətəndaşımız haqqında məlumat alınıb. İki vətəndaşımız qalıb ki, onlardan hələlik xəbər yoxdur”. Qeyd edək ki, Türkiyədəki zəlzələdə 10 nəfər Azərbaycan vətəndaşı da həlak olub.

Biləcəri dəmiryol stansiyasından Türkiyəyə humanitar yardım göndərilib. ”Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov deyib ki, bugünə qədər humanitar yardımlar Azərbaycandan Türkiyəyə hava və quru yolu ilə göndərilirdi. Hazırda humanitar yardımlar 25 konteynerdən ibarət yük qatarı ilə yola salınır: ”Bu qatar Bakı-Tiblisi-Qars dəmiryolu xətti üzrə 3 gün ərzində qardaş Türkiyəyə çatdırılacaq. Biz bu humanitar yardımların dəmiryolu vasitəsilə çatdırılmasında əlimizdən gələni əsirgəməyəcəyik”.



**20 ədəd modul tipli ev Türkiyəyə göndərilib**

Türkiyə Respublikasında baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycan Respublikasının şəhər, rayon icra hakimiyyətləri tərəfindən hər gün qardaş ölkəyə humanitar yardımlar göndərilir. Hazırda fəlakət zonasında evsiz-eşiksiz qalmış insanların isti sığınacaqlarla təmin edilməsi ən vacib məsələlərdən biridir. Bu məqsədlə Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyətləri tərəfindən Bakı şəhərində sifariş olunmuş 90 ədəd müasir modul tipli ev hazırlanaraq mərhələli şəkildə Türkiyəyə göndərilib. Qısa müddətdə və yüksək keyfiyyətlə hazırlanmış 1 və 2 otaqlı belə evlərdə 10-12 nəfərin yaşaması üçün lazımi şərait yaradılıb.

Fevral ayının 13-də modul tipli evlərdən 4-ü Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən yola salınıb, fevralın 15-də isə Mingəçevir, Kürdəmir, Goranboy, Cəlilabad və Tərtər İH-lərinin sifarişi ilə hazırlanmış daha 20 ədəd ev qardaş ölkəyə yola salınıb. Dünən Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən növbəti dəfə 4 ədəd modul tipli ev Türkiyəyə yola salınıb.

**FHN tərəfindən Kahramanmaraşda növbəti çadır şəhərciyi qurulub**

Fövqəladə Hallar Nazirliyi tərəfindən qardaş ölkəyə göndərilmiş çadırların Nazirliyin qüvvələri tərəfindən qurulması prosesi həyata keçirilir. FHN-in qüvvələri tərəfindən Kahramanmaraş rayonunda yerləşən Kahramanmaraş Sütçü İmam Universitetinin həyətində 300 çadırdan ibarət növbəti çadır şəhərciyi qurulub. Çadırlarda yaşayan insanlar üçün lazımi şərait yaradılıb, o cümlədən mobil səhra mətbəxi qurularaq qida təminatı təşkil edilib.

Onlarla ölkədən göndərilən yardımlar qardaş ölkədə təbii fəlakət qurbanlarına maddi kömək olmaqla yanaşı, bütün türk xalqı üçün vacib mənəvi dəstək olub. Azərbaycanda faciənin ilk günlərindən həm hökumət, həm də xalq səviyyəsində başladılan humanitar yardım kampaniyaları Türkiyə mediasının diqqət mərkəzindədir. Anadolu xəbər agentliyi Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin təxliyədən imtina edərək könüllü şəkildə xilasetmə işlərinə dəstək verməsindən bəhs edən məqalə dərc edib. Məqalədə qeyd olunub ki, Kahramanmaraşdakı Sütçü İmam Universitetində doktorantura təhsili alan azərbaycanlı tələbə Elxan Qurbanlı təxliyə avtobusu ilə Kahramanmaraşdan yola salınsa da, Ankarada fikrini dəyişərək geri qayıdıb və könüllü olaraq zəlzələ qurbanları üçün yemək bişirən komandaya qoşulub. Məqalədə qeyd olunub ki, Kahramanmaraşda azı 15 azərbaycanlı tələbə və müəllim zəlzələ qurbanlarına müxtəlif yollarla yardım etmək üçün könüllü fəaliyyət göstərirlər. Yazıda Azərbaycanın Türkiyəyə göndərdiyi 745 xilasedicinin 53 nəfəri dağıntılar altından sağ çıxardığı, 700 nəfərin isə meyitini təhvil verdiyi qeyd olunub.

**“Azərbaycan könüllüləri harada ehtiyac var, ora qaçır”**

”Sabah” qəzeti də azərbaycanlı könüllülərin fəaliyyəti ilə bağlı geniş yazı dərc edib. Məqalədə qeyd olunub ki, Azərbaycanın yardımı sadəcə göndərdiyi axtarış-xilasetmə qrupları ilə bitməyib. Vurğulanıb ki, Azərbaycan Gənclik Vəqfinin (TÜGVA) üzvü olan 100 gənc Kahramanmaraşda könüllü fəaliyyət göstərir, zəlzələ qurbanı olan uşaqlarla vaxt keçirir, insanların dərdinə şərik olaraq onlara mənəvi dəstək verir: ”Harada ehtiyac varsa, oraya qaçan azərbaycanlı gənclər iki dövlət, bir millət olduğumuzu bir daha bütün dünyaya göstərir”. ”Bursahakimiyet” saytında isə Azərbaycandan Türkiyəyə göndərilmiş qida, paltar, yataq dəstlərinin arasından tapılan təsirli qeydlərin duyğulu anlara səbəb olduğu qeyd edilib. ”Hürriyet” qəzetində dərc edilmiş yazıda Azərbaycandakı türkiyəli iş adamları tərəfindən Türkiyəyə 135 TIR yardım göndərildiyi, qida və su yüklənmiş 26 vaqonluq yardımın isə dəmir yolu ilə bu gün yola salınacağı bildirilib.

**İsmayıl**



# Bakıya sülh müqaviləsinin mətni təklif olunub

## Sənəd həmçinin ABŞ, Fransa və Rusiyaya da göndərilib

**Ermənistan Baş naziri Nikol Paşinyan hakim "Mülki müqavilə" Partiyasının nümayəndələri ilə gecə saatlarında təcili toplantı keçirib. Görüş təxminən bir saat davam edib. Təfərrüatlar barədə ətraflı məlumat verilməsə də, təcili görüşün səbəbinin Azərbaycanla bağlı olduğu deyilib. "Joxovurd" qəzetinin məlumatına görə, görüşdə Azərbaycanın sülh müqaviləsinin mətni ilə bağlı son təkliflər müzakirə edilib.**

Paşinyan və hakim partiya üzvləri bu barədə fikir mübadiləsi aparıblar. Bundan sonra baş nazir danışıqların mümkün qədər tez başa çatdırılmasının, həmçinin Türkiyə ilə münasibətlərin normallaşdırılmasının vacibliyini bildirib. Paşinyan Ermənistan Azərbaycanla sülh sazişi layihəsi üzərində işi başa çatdıraraq Bakıya göndərdiklərini söyləyib. O həmçinin qeyd edib ki, sənəd ABŞ, Fransa və Rusiyaya da göndərilib. Xatırladaq ki, bir neçə gün öncə Ermənistan tərəfi Azərbaycandan sülh müqaviləsi ilə bağlı yeni təkliflər aldığını demişdi. Xarici işlər naziri Ararat Mirzoyan İrəvanın təklifləri nəzərdən keçirdiyini, mətn üzərində işlədiyini bildirmişdi. Bundan əvvəl də tərəflər arasında sülh müqaviləsi ilə bağlı qarşılıqlı təkliflər mübadiləsi baş tutmuşdu.

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, 44 günlük müharibədən bu yana Ermənistan sülh müqaviləsi prosesindən qaçmağa çalışıb. Partiya rəhbəri qeyd edib ki, İrəvan hökuməti bütün vasitələrdən istifadə edərək sülh prosesini, müzakirələri müddətsiz uzatmağa cəhd göstərib:** "Problem ondadır ki, Ermənistan rəhbərliyinin ritorikası dəyişkəndir. Bu gün verdikləri hansısa bəyanat dünənki açıqlama ilə daban-dabana zidd olur. Rəsmi Bakının sülh müqaviləsi ilə bağlı mövqeyi qəti və konkretdir. Öz şərtlərimizi, ilkin tələblərimizi 5 əsas baza prinsipi altında İrəvana təklif etmişik. İlk vaxtlar Ermənistan tərəfi təklif edilən şərtlərin normal olduğunu, müzakirələrdə problem yaranmayacağını bildirmişdi. Lakin bir müddət sonra sənəddə "çatışmazlıqlar" üzə çıxartmağa başladılar. Əslində, Ermənistan tərəfi yaxşı anlayır ki, irəli sürülmüş şərtləri qəbul etməkdən başqa çıxış yolu yoxdur. Sərhədlərin dəqiq müəyyənləşməsi, nəqliyyat və digər kommunikasiya xətlərinin işə düşməsi, bu və ya digər formada əməkdaşlıq ilk növbədə Ermənistanın özü üçün zəruridir. Bu sülh müqaviləsi həm də İrəvan-Ankara münasibətlərinin düzəlməsi, sərhədlərin açılması, iqtisadi əlaqələrin də yaranması deməkdir. Paşinyan hökuməti bunun fərqindədir. Ancaq bəlli səbəblərdən bu istiqamətdə irəliyə doğru addım ata bilmirlər, atmırlar. Bunu edə bilmədikləri üçün özlərini sülh müqaviləsi prosesində, guya, "maraqlı tərəf", "aktivlik nümayiş etdirən tərəf" kimi təqdim etməyə çalışırlar".

> Azərbaycanın irəli sürdüyü şərtlər qəbul olunarsa, regionun ab-havası dəyişəcək

*A.Əlizadə vurğulayıb ki, Paşinyanın anti-Rusiya siyasəti, Qərbə yönəlik addımları Moskvanı əməlli-başlı hiddətləndirib:* "Kreml Cənubi Qafqaz bölgəsinə, xüsusən Azərbaycan-Ermənistan sərhədinə Avropa İttifaqına məxsus hərbi missiyasının göndərilməsinə ciddi surətdə qarşı çıxır. Bu, heç də Rusiyanın maraqlarına xidmət etmir və rəsmilər İrəvanı kəskin tənqid edirlər. Paşinyan sülh müqaviləsi prosesində "aktivlik" göstərməklə, müzakirə etdikləri sənədi Rusiyaya da göndərməklə bir növ imitasiya ilə məşğul olur. Yaranacaq hər hansı məsuliyyəti vaxtında öz üzərindən atmaq niyyəti güdür. O baxımdan düşünmürəm ki, yaxın zamanda Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanmaq mümkün olacaq. Ən azından rəsmi Bakının irəli sürdüyü şərtlər daxilində bunu reallaşdırmaq mümkün olmayacaq. Yekun və hərtərəfli sülh müqaviləsi üçün hələ çox vaxt lazımdır. Praktika göstərir ki, Ermənistanın yola gəlməsi üçün növbəti zərbə lazım olacaq. İrəvanı güc tətbiq etməklə yeni sənəd imzalamağa məcbur etməliyik. Əks halda Ermənistan Qərb və Rusiya arasında get-gəldə, söz oyununda və siyasi manevrlərdən əl çəkməyəcək".

**İsmayıl Qocayev**

# Azərbaycan və Türkiyənin XİN başçıları zəlzələ bölgəsindəki vəziyyəti müzakirə ediblər




**Fevralın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.**

Bu barədə "Şərq"ə Xarici İşlər Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, telefon danışığı zamanı Türkiyədə böyük insan təlefatı və güclü dağıntılara səbəb olan zəlzələ nəticəsində zərərçəkmiş əhalinin xilas olunması, humanitar yardım göstərilməsi istiqamətində aparılan əməliyyatların və işləri üzrə son vəziyyəti müzakirə edilib. Baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə bağlı bir daha başsağlığı diləklərini çatdıran nazir Ceyhun Bayramov zəlzələ nəticəsində xəsarət almış şəxslərə şəfa diləyib. Nazir Azərbaycanın hər zaman olduğu kimi bu çətin günlərdə də qardaş Türkiyənin yanında olduğunu, baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində öz dəstəyini davam etdirəcəyini bildirib. O, qardaş Türkiyənin bu ağır sınaqdan da üzüağ çıxacağına dair inamını əminliklə ifadə edib. Telefon danışığı zamanı Türkiyə xarici işlər naziri Mevlüt Çavuşoğlu həmçinin zəlzələ bölgəsində son vəziyyət, xilasetmə əməliyyatlarının gedişatı barədə ətraflı məlumat verib. Telefon danışığı zamanı həmçinin, bölgədə mövcud vəziyyət, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Birlik zamanıdır

## Yenə ayağa duracaqsan, ey TÜRK XALQI!



Eldar Sabiroğlu

**Türkiyə çalxalanır, təbii fəlakətin xalqa gətirdiyi müsibət, dağıntılar altından çıxarılan on minlərlə insanın ölümü, hələ bundan sonra itkilərin daha nə qədər olacağını heç kimin deyə bilməyəcəyi bir zamanda bəzi qüvvələrin bu acıdan siyasi fayda götürmək kimi yaramaz plan və məqsədlərinin son dərəcə xain və riyakar bir həlqədə birləşməsini diqqətdən kənarda saxlamaq olmaz.**

Onların istədiyi təkcə hakimiyyəti mənimsəmək yox, aranı qarışdırıb xalqı üz-üzə qoyaraq Türkiyənin siyasi dayaqlarını zəlzələyə oxşar dəhşətli bir dağıntılar ölkəsinə çevirməkdən ibarətdir. Vəziyyət o həddədir ki, ölkədə vətəndaş müharibəsi hər an başlaya bilər. Bəli, burada başqa bir təhlükəli meylin olacağı da istisna deyildir. Hadisələrin gedişatı göstərir ki, Türkiyə hakimiyyətinə qarşı bu qalxınmada dəhşətli zəlzələ nəticəsində məhv olan, ailəsini, çoluq-cocuğunu itirmiş insanların bədbəxtçiliyi üzərində qurulan dramadan güclü Türkiyəni həzm edə bilməyən daxildəki qara qüvvələrlə yanaşı bəzi xarici qüvvələrin olduğu da şübhə altındadır. Ola bilsin ki, hətta bu, çox təhlükəli oyunun içərisində zəlzələdən acılıq çəkmiş əhaliyə yardımlar göstərən müəyyən xarici təşkilatların fəaliyyətinin araşdırılmasına ciddi ehtiyac duyulacaq. Bunun öhdəsindən Türkiyənin xüsusi xidmət orqanlarında çalışan təcrübəli, peşəkar əməkdaşlarının gələ biləcəyinə inanıram. Fəqət, içimdəki sarsılmaz inama görə Türkiyə dövləti və xalqı bu acı fəlakətə təslim olmayacaqdır.

> "İndi müxalifət-iqtidar döyüşünə qalxmağın vaxtı deyil"

Türk milləti son hesabla evini, ocağını itirmiş qardaşlarımızın bu müsibətli həyatını dərindən anlayır. Sadəcə zaman gərəkdir ki, 13 milyonluq əhalisi olan bir ərazidə dağıntıların geniş miqyasını diqqətə alınsın. İndi müxalifət-iqtidar deyib qanlı-bıçaq döyüşünə qalxmağın vaxtı deyil. Adətən, bu cür vəziyyətlərdə insanlarımız bir-birinə daha sıcaq qaydada yanaşır, biri digərinin dərdinə, əzabına qatlaşır. Mən Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın göz yaşları içərisində boğulduğuna baxa bilmirdim. Adamı dərd qocaltdı... üç günün içərisində. Millətin kədər və hüznü onun gözlərinə çöküb!

Bu fəlakət də Türkiyəni yıxa bilməyəcək. Buna Böyük Allahıma inandığım qədər inanıram. Tarix özü deyir ki, səbrli ol, ey türk xalqı! Sən zaman-zaman belə ağır acılar yaşayan, lakin bu acıları qəhrəmanlıqla dəf edən qüdrətli bir dövlətsən. Yenə ayaq üstə duracaq, əvvəlki yaşayış məcrasına qayıdacaqsan!.. Dünyanın aparıcı dövlətləri və nüfuzlu mediası da bunu etiraf edir. Ölkələr ard-arda öz yardımlarını zəlzələ zonasına göndərir, dünyanın dörd bir tərəfindən uçurumlar, dağıntılar altındakı ölüləri, sağ qalan insanları qurtarmaq üçün xilasedicilər bütün lazımi texniki vasitələrlə birlikdə Türkiyəyə axışırlar. Azərbaycan dövlətinin yardımçı ölkələr arasında birinci olmasından qürur duyuram.

Başın sağ olsun, Türkiyəm! Ürəyimiz yanır, qəlbimiz od tutub alovlanır. Bu nə böyük dərd, nə amansız faciə oldu. Göz yaşı içərisindəyik. Səninlə birlikdə Azərbaycan da ağlayır. Türkiyəm, inanıram ki, bu ağır imtahandan da sən şərəflə çıxacaqsan. Ancaq nə etsək də, gecəyarası ağır zəlzələ nəticəsində dünyasını dəyişən əziz və günahsız insanları geri qaytarılması mümkün olmayacaqdır. Çox keçməz ki, dağılmış o binaların yerində daha gözəllərini Türkiyəmin ucaldacağına əminəm, lakin gedənlər bir daha qayıtmayacaq. Allahdan onlara rəhmət diləyir və bu fəlakətlə əlaqədar səbrli olmağı arzu edirəm.

# Ağ Ev Konqresin razılığını almalıdır

## Vaşinqton ələ keçirdiyi İran silah və sursatlarını Ukraynaya göndərməyi planlaşdırır

**İran qaçaqmalçılıq yolu ilə Rusiyaya PUA-lar göndərir. Bu barədə "The Guardian"da araşdırma dərc edilib. Məlumata görə, həmin silahları daşımaq üçün Rusiya qayıqlardan və dövlət şirkətlərinin vasitələrindən istifadə edib. O da qeyd olunub ki, Rusiyaya əvvəlcə göndərilmiş "Şəhid 131" və "Şəhid 136" PUA-larından fərqli olaraq, büdcəfikilər daha yüksəkdən uça, bomba ata və geriyə qayıda bilirlər.**



Qeyd edək ki, Rusiyanın əldə etdiyi iddia olunan "Mühacir -6" pilotsuz uçan aparatı 40 kiloqram hərbi yük daşıya, elektrik enerjisi ilə işləyə və 6 saat havada qala bilir. "Şəhid129" PUA-ları isə 60 kiloqram hərbi yük daşıyır, havada dörd saat qalır. "Şəhid191" isə 70 kiloqram hərbi yük daşıya və beş saat havada qala bilir. Hər ikisinin hazırlanmasında Almaniya istehsallı mühərrikdən istifadə olunur. Siyasilərin fikrincə, Rusiyanın Ukraynaya hücumundan sonra, üstəlik, Qərbin İrana qarşı sanksiyaları fonunda Moskva və Tehran arasında münasibətlər daha da isinib. Buna səbəb həm də Rusiyanın bir ilə yaxındır davam etdirdiyi müharibədə uzaqmənzilli raketlərlə bağlı çətinlik çəkməsidir. Qərb mətbuatı Moskvanın Tehrandan başqa, Pxenyanla da tərəfdaşlığı artırmağa çalışdığını bildirir. Ukrayna analitiklərinin məlumatına görə, Rusiya hücumun bir illiyi münasibətilə daha böyük hücuma hazırlaşır və buna görə də Şimali Koreyadan ballistik raketlər almağa çalışır. Ukrayna rəsmilərinin xəbərinə görə, təkcə ötən ilin dekabrında paytaxt Kiyev İran istehsallı 20 dronun hücumuna məruz qalıb, onların 15-i zərərsizləşdirilib. Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, ölkə ötən ilin oktyabr ayında 136, sonlarında isə 45 İran istehsallı PUA hücumuna məruz qalıb. Araşdırma materialda Rusiyanın yeni PUA-ları əldə etməsinin səbəbi Ukraynanın istifadə etdiyi Türkiyə istehsallı "Bayraktar"lara qarşı mübarizə aparmaq istəyi olduğu da qeyd olunub. Nəşr pilotsuz təyyarənin Rusiyaya Xəzər dənizi üzərindən göndərilməsi ilə bağlı etibarlı mənbələrdən məlumatlar aldığını bildirir. Vurğulanıb ki, İrandan göndərilən silahlar, dənizdəki Rusiya donanmasına təhvil verilir. Dronların idarə olunması üçün İrandan 54 mütəxəssis də bu yolla Rusiyaya göndərilib. Araşdırmada o da qeyd olunub ki, İranın bu ilin yanvar və fevral aylarında hücum edilən hərbi bazalarında həmin dronlar da isehsal edilir. Bu məsələdə İsfahandakı hərbi baza xüsusi vurğulanır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Ukraynaya qarşı müharibədə İran silahlarından yalnız Rusiya ordusu istifadə etmir. Ukrayna ordusuna da İran silahları göndəriləcək. Ancaq bu dəfə silahları göndərən Tehran olmayacaq:** "İran savaşın davam etdiyi Yəməndəki tərəfdaş qruplara illərdir gizli yollarla silah və sursat göndərirmiş. ABŞ bunların bir hissəsini Yəmənin dənizi limanlarında ələ keçirib. Söhbət minlərlə tüfəngdən, milyonlarla patrondan və tank əleyhinə minalardan gedir. Bunlar Amerikaya lazım deyil, ancaq Ukrayna ordusuna istənilən təhcizat faydalıdır. Ona görə də Vaşinqton ələ keçirdiyi İran silah və sursatlarını Ukraynaya göndərməyi planlaşdırır. Sadəcə bunun üçün Ağ Ev Konqresin razılığını almalıdır. Bu arada, Səudiyyə Ərəbistanın paytaxtı Ər-Riyadda ABŞ ilə ərəb ölkələrinin diplomatları arasında məsləhətləşmələr keçirilib. Amerikalı diplomatlar ərəb həmkarlarına İran təhlükəsi barədə əlavə məlumat veriblər. Onu da deyiblər ki, İranın Rusiyaya verdiyi pilotsuz uçuş aparatları gələcəkdə ərəb ölkələri üçün təhlükə mənbəyinə çevriləcək. Bu xəbərdarlığa qədər də İran bölgədəki müttəfiq silahlı qruplar vasitəsilə ərəb ölkələrinin bir qismini hədəf götürüb. İran istehsalı olan dronlar Yəmən üzərindən Səudiyyə Ərəbistanının neft emalı zavodlarına zərbələr endirmişdi. İranın pilotsuz uçuş aparatlarının istifadə trayektoriyası genişlənib. Ona görə də İrana qonşu ölkələrin hava məkanlarını gücləndirməsi vacibdir".

**İsmayıl Qocayev**

# Plan pozulur

## Rusiya Vardanyana yeni təlimatlar verib

**"İddialara görə, Vardanyan Araik Arutyunyanın ardından Rusiyaya gedib".**

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı Vardanyanın yenidən Qarabağa qayıtmasından danışarkən deyib.**



> "Rəsmi Bakı və ABŞ tərəfindən dəstəklənən ermənilərlə təmasların qurulması üçün bir layihə var"

O bildirib ki, hər iki səfərin səbəbi Rusiyanın kimi dəstəklədiyini anlamaq üçündür: "Çünki Vardanyanın qondarma dövlətin "naziri" elan edilməsi Arutyunyanı narahat edirdi. Bu, həmçinin Paşinyanın da mövqeyinə uyğun gəlmirdi. Ümumiyyətlə, Vardanyanın geri qayıtması Rusiyanın onu yeni təlimatlar verərək bölgəyə göndərməsi deməkdir. Yəni Rusiya Vardanyanı Paşinyana qarşı geri qaytarıb. Digər tərəfdən, burada Azərbaycan faktoru var. Bilirik ki, Azərbaycan əvvəlcədən Vardanyanı istəmir və ona Moskvanın layihəsi kimi baxır. Rəsmi Bakı və ABŞ tərəfindən dəstəklənən ermənilərlə təmasların qurulması üçün bir layihə var. Bu prosesdə kimin iştirak edəcəyi isə əsas məsələdir. Azərbaycan tərəfi Arutyunyan və separatçı rejimin rəhbərliyi barəsində cinayət işi açdığı üçün onların nümayəndəliyi mümkün deyil. Rusiya isə Vardanyanı bölgəyə göndərməklə həmin layihəni ələ almaq istəyir. Yəni Vardanyanı "nümayəndə" kimi Bakının qarşısına çıxarmağa çalışır".

*Analitikin sözlərinə görə, Vardanyan Xankəndiyə qayıtdıqdan sonra separatçı rejimin daxilindəki qarşıdurma daha pik həddə çatacaq:* "Artıq Araik Arutyunyan "konstitusiya islahatları" adı altında prosesə başlayıb. Buradakı əsas məsələ qondarma rejimin yeni "prezident" seçməsidir. Yəni onlar Rusiyaya görə Vardanyanı prosesdən uzaqlaşdıra bilmirlər. Bu səbəblə də qanuni yola əl atmaq istəyirlər. Həmçinin yeni "prezident"in seçilməsi "hökumət"in buraxılması deməkdir. Əgər "hökumət" buraxılarsa, Vardanyan tutduğu qondarma "nazir" postundan uzaqlaşacaq. Amma Vardanyanın geri qayıtması göstərir ki, Rusiya daxilində onu dəstəkləyən qüvvələr geri addım atmaq istəmir. Bu isə Xankəndində daha ciddi siyasi qarşıdurma olacağı gözləntisini artırır".

**Nihat Müzəffər**

# Xameneinin təhdidləri hiddəti sakitləşdirməyəcək

## İranda daxili etirazlar daha geniş vüsət alacaq



**İranın paytaxtı Tehran şəhəri və əyalətində hakimiyyətə qarşı növbəti etiraz aksiyaları başlayıb. Hakimiyyətdən naraz olan əhali "Diktatora ölüm!", "SEPAHçıya ölüm!", "Qəddar Xameneiyə ölüm!", "Ölüm ola Xameneiyə, lənət ola Xomeyniyə" şüarları səsləndiriblər.**

İran rəhbəri Əli Xamenei isə ölkədə olan ağır duruma toxunmadan tənqidçiləri "deyingən" adlandırıb. O, xalqı və siyasi cərəyanları sistemi tənqid etməməyə çağırıb. Xamenei fevralın 15-də etdiyi çıxışında bir daha etirazçıları xarici düşmənlərin əlaltısı olmaqda ittiham edib. Ölkədə hakim olan ağır iqtisadi şəraitin təbii olduğunu deyib və iddia edib ki, ABŞ, İngiltərə və Fransa kimi ölkələrdə yoxsulluq, xəstəlik, ayrı-seçkilik və sosial ədalətsizlik İranda olduğundan daha şiddətlidir. İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) komandanı Əmir Əli Hacızadə etirazlar zamanı azı 300 nəfərin öldüyünü söyləyib. Tehran Universitetinin İntizam Komitəsi etiraz aksiyalarına qoşulan tələbələrə qarşı müxtəlif cəza tədbirləri tətbiq ediblər. Əksər tələbələr universitetlərdən qovulub. Tələbələrin Universitetdən qovulma səbəbləri kimi "universitetdə qarşıdurma yaratmaq, qeyri-qanuni toplantılarda iştirak etmək və islami geyim qaydalarına riayət etməmək" göstərilib. Xatırladaq ki, İranda etirazlar hicaba görə saxlanılan 22 yaşlı Məhsa Əminin ölümündən sonra başlayıb.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında deyib ki, İran artıq siyasi, iqtisadi, ictimai problemlər istehsal edən dövlətə çevrilib. Partiya təmsilçisi qeyd edib ki, bu problemlərin heç biri hələ də həll edilməyib:** "İnsanların tənqidlərini, etirazlarını dilə gətirə bilməsi üçün platformalar yaradılmır. Buna görə də insanlar məcburiyyət qarşısında qalaraq küçələrə axışır. Əslində əxlaqsızlığın artması, marixuanadan istifadə yaşının aşağı düşməsi, yoxsulluq və digər məişət problemləri diqqətdə saxlanılmalıdır. İnsanlar İran dövlətinin yanlış siyasətinin yükünü daşıyırlar. Fars-molla rejiminin nümayəndələri xalq etirazını kiçiltməyə çalışır. Məsələn, daxili işlər naziri bir neçə dəfə "üsyana son qoyulduğu" haqda danışıb. Lakin etirazlar səngiməyib. Bu, rejimin yalan danışdığının sübutudur. Son günlər İran rejimi o iddianı tirajlayır ki, etirazları yatırmaq üçün tam gücdən istifadə etməyiblər, halbuki bütün təhlükəsizlik qüvvələri, eləcə də mülki geyimli dəstələr işə salınsa da, rejim heç bir nəticə əldə etməyib. Xamenei də etirazların hicabla bağlı olduğu ilə bağlı spekulyasiya etmək istəyib. Amma hicab məsələləri, qadınların öz azadlıqlarını istəməsi etirazlarda sadəcə kiçik bir yer tutur. Tutaq ki, sabah hicab azadlığı gəldi, nə olsun? Bəs məişət problemləri, yoxsulluq, işsizlik necə olacaq? İctimai xadimlərin uzunmüddətli həbs edilərək, işgəncəyə məruz qalması, bəzilərinin edam olunması necə olacaq?".

*S.Əsədli vurğulayıb ki, İran dövləti elə təsəvvür yaradır ki, guya problem yalnız hicabla bağlıdır:* "Beləliklə, işgəncələrə, edamlara, təcavüzlərə davam edirlər. Xalqın haqlı etirazlarına müsbət reaksiya verilmir, problemlərin həlli üçün addım atılmır. Bu yanlışlarını düzəltmək əvəzinə ölkə daxilində başlayan etirazlara qarşı "xarici düşmən" obrazını gücləndirmək kimi effektsiz gedişlər gedir, havadan asılı qalan təhdidlər yağdırır. Etirazların miqyası, insanların tələbləri, xüsusilə qadınların nümayişkaranə şəkildə hicabı açması göstərir ki, İranı bu dəfə düzəltmək istədiyi "xarici düşmən" obrazı da xilas edə bilməyəcək".

**İsmayıl Qocayev**

# Lavrovun səfəri heç nəyi dəyişməyəcək

## Moskva da danışıqlarda kimin vasitəçi olmasını müəyyən edən tərəfin Azərbaycan olduğunu anlayıb



**"Rusiya xarici işlər naziri Sergey Lavrovun Azərbaycana gözlənilən səfəri ilk növbədə, rəsmi Moskvanın vasitəçilik işini davam etdirməyə və təşəbbüskarlığı ABŞ-yə verməməyə yönəlib".**

**Bunu "Şərq"ə Azərbaycan Alyans Partiyasının sədri Abutalıb Səmədov Rusiya xarici işləri naziri Sergey Lavrovun Azərbaycana səfərindən danışarkən deyib.** O bildirib ki, ötən ilin sonları - dekabrda Ermənistan Baş naziri Nikol Paşinyanın Brüssel müzakirəsində mütləq Makronun iştirakını israrla istəməsi və Avropa İttifaqının (Aİ) bu tələbə kəskin reaksiya verməməsi, etiraz etməməsi Avropa Birliyini (AB) danışıqlar prosesində oyundankənar vəziyyətdə qoyub: "O dövrə qədər Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması məsələsində əsas vasitəçi olan Avropa İttifaqı prosesdən kənarlaşdı. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, indi real iki vasitəçi qalıb: rəsmi Moskva və rəsmi Vaşinqton. Təbii ki, Rusiya təşəbbüskarlığı əldən vermək istəmir. Ona görə də Lavrovun səfərinin əsas məqsədi sülh sazişinin imzalanması istiqamətində işləri sürətləndirməkdir. Ötən il Vladimir Putinin "Valday" forumunda səsləndirdiyi təxribatçı bəyanatdan sonra Rusiya da məlum məsələdə xeyli geriləyib".

**Partiya rəhbərinin fikrincə, artıq rəsmi Moskva da danışıqlarda kimin vasitəçi olmasını müəyyən edən tərəfin Azərbaycan olduğunu anlayıb:** "Ölkəmizin qəbul etmədiyi heç bir dövlət, yaxud beynəlxalq qurum vasitəçilik missiyasını yerinə yetirə bilməyəcək. Baxaq, görək, Lavrov bundan əvvəl baş verən proseslərdən hansı nəticəni çıxarıb?! Yaxud da sülh danışıqlarını sürətləndirmək istiqamətində addımlar atmaq iqtidarındadır, yoxsa yox?! Azərbaycanın əsas tələbi Dağlıq Qarabağ adının sülh sazişində yer almamasıdır. Güman edirəm ki, rəsmi Moskva da bu reallığı artıq qəbul edib. Əks halda, Lavrovun səfəri mənasızdır".

A.Səmədov diqqətə çatdırıb ki, səfər zamanı başqa məsələlər də müzakirə oluna bilər: "Azərbaycan-Rusiya münasibətlərinə ciddi problem yaradan təxribatçı Ruben Vardanyan təcili Qarabağdan uzaqlaşdırılmalıdır. Hamı bilir ki, bu, Rusiyanın bir kəlmə sözündən asılıdır. Delimitasiya və demarkasiya işinin tezləşdirilməsində də kifayət qədər ciddi ləngimələr var. Eyni zamanda Zəngəzur dəhlizinin açılması istiqamətində danışıqlar xeyli müddətdir gecikir. Bu sahədə ciddi addımların atılmasına ehtiyac var. Rusiya anlamalıdır ki, addım atmasa, ABŞ yaxın həftələrdə buna təşəbbüs göstərməyə cəhd edəcək".

*Qeyd edək ki, Rusiya xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat verib.*

**Sücayət Mehti**

# Zakir Həsənov azad edilmiş ərazilərə gedib

## Nazir aparılan tikinti işləri ilə tanış olub



**Müdafiə naziri Zakir Həsənov azad edilmiş ərazilərdə aparılan tikinti işləri ilə tanış olub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir hərbi infrastrukturun yaradılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə tikintisi davam edən bir neçə hərbi obyektdə görülən işlərlə tanış olub.

Məruzə olunub ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi və digər infrastruktur obyektləri, eləcə də hərbi qulluqçular və onların ailə üzvləri üçün yaşayış binası tikilir. Bütün obyektlərin müasir avadanlıqlarla təchiz olunmasının nəzərdə tutulduğu qeyd edilib.

Tikinti-quruçuluq işlərinin gedişatını yoxlayan müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Xaricdə oxuyan tələbələr əziyyət çəkir

## AZAL güzəştli biletlərin tətbiqi ilə bağlı təklifləri dəyərləndirmir



**Türkiyənin Malatya şəhərində baş verən zəlzələdə dağıntılar altında qalan 4 azərbaycanlı tələbə həlak olub. Uzunmüddətli axtarışlardan sonra dağılan binanın altından cansız bədənləri çıxarılan İnönü Universitetinin tələbələri - Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadənin nəşi vətənə gətirilərək doğulduqları rayonlarda dəfn olunub.**

Yaxınlarının açıqlamasına görə, zəlzələdən hələ iki həftə əvvəl Türkiyə universitetlərində tətil olduğuna baxmayaraq, tələbələrimiz 15 günlük tətili Türkiyədə qalmalı olublar. Belə ki, gediş-gəliş biletlərinin xeyli baha olması səbəbindən onlar vətənə qayıda bilməyib. Bəlkə də zamanında AZAL tələbələr üçün güzəşt edib bilet qiymətlərini ucuzlaşdırsaydı, həmin günlərdə öz valideynlərinin yanında olan tələbələr zəlzələ qurbanı olmazdılar.

Qeyd edək ki, xaricdə oxuyan tələbələrin biletlərin baha olması səbəbindən ölkəyə qayıda bilməməsi uzun müddətdir gündəmdə olan məsələdir. Pandemiya səbəbindən quru sərhədləri bağlı olduğu üçün xarici ölkələrə gediş-gəliş sadəcə hava nəqliyyatı ilə həyata keçirilir. İctimaiyyət üzvlərinin, valideynlərin çoxsaylı təkliflərinə rəğmən AZAL xaricdə oxuyan tələbələrə yol xərcində güzəşt etməyib.

Qeyd edək ki, dövlət proqramı ilə xaricdə təhsil alan tələbələrin yol xərcini dövlət ödəyir. Amma bütün tələbələr xaricdə dövlət proqramı ilə təhsil almır axı.

**Sosioloq İlqar Hüseynlinin sözlərinə görə, dünyanın bir çox ölkələrində öz hesabına xaricdə təhsil alan tələbələrə də yol xərcində güzəştlər tətbiq edilir.**

AZAL-ın qiymətlərindən ciddi narazılıqlar olduğunu vurğulayan sosioloqun fikrincə, dövlətin pulu hesabına mövcud olan AZAL-ın aviabiletləri bu qədər bahalaşdırması yolverilməzdir. "Bu çox aktual bir məsələdir. İllərdir bu barədə öz təklif və tələblərimizi irəli sürürük. AZAL isə heç bir təklifə müsbət yanaşmır və ölkə vətəndaşlarına qarşı saymaz münasibət sergiləyir. Halbuki xalqın pulu ilə idarə olunan bir şirkətin haqqı yoxdur ki, bu cür bahalaşmaya getsin. Faktiki olaraq hər il dövlət büdcəsindən onlara külli miqdarda vəsait ayrılır. Sərhədlər açıq olanda tələbələr nisbətən ucuz qiymətə Rusiyaya, Ukraynaya, Türkiyəyə, Gürcüstana gedib-gəlirdi. Quru yolları bağlanandan sonra əvvəllər inhisarçılıqla məşğul olan AZAL fürsətdən istifadə edib soyğunçuluğa başladı . Dəfələrlə, AZAL-a güzəştli biletlərin tətbiqi ilə bağlı müraciət etmişik, təkliflər irəli sürmüşük. Hətta əsaslandırma da etmişik ki, AZAL üçün bu güzəştləri tətbiq etmək çətin deyil, lakin bir nəticə yoxdur".

**Şəymən**

# "Himayədar ailə" modelində əsas hədəf dəqiqdir

## Uşaqlar ailə ortamında böyüsün, inkişaf etsin, təhsil alsın, cəmiyyət üçün yararlı vətəndaş olaraq yetişsinlər



**Ölkəmizdə "Himayədar ailə" qayğı modelinin tətbiqi ilə bağlı qabaqcıl dünya təcrübəsi öyrənilməklə mütərəqqi yanaşmalar əsasında dolğun normativ hüquqi baza yaradılır. Bu barədə qeyd olunan modelin tətbiqinə hazırlıq işlərinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən iclasda bildirilib. Nazir müavini Vüsal Nəsirli himayədar ailə institutunun tətbiqi sahəsində aparılan işləri qeyd edib.**

O, övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə institutunun tətbiqi işlərində də uşaqların maraq və mənafelərinin üstün tutulmasının prioritet təşkil edəcəyini vurğulayıb. Bildirilib ki, bu sahədə idarəçilik və xidmətlərin də elektron sistem üzərində müasir, operativ və şəffaf təşkili diqqətə saxlanılır. Himayədar ailə olmaq istəyən ailələrin və himayədar ailəyə verilmiş uşaqların vahid uçotunun elektron qaydada aparılması təmin ediləcək. İclasda müvafiq sahədə normativ hüquqi bazanın yaradılması, himayədar ailə mexanizminin tətbiqi ilə bağlı nazirliyin "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin yeni funksional imkanlar əlavə olunmaqla təkmilləşdirilməsi istiqamətində görülən işlər müzakirə olunub.

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında qeyd etdi ki, "Himayədar ailə" qayğı modeli uşaqların ailələrdə böyüməsi və inkişafı üçün nəzərdə tutulan platformalardan biridir:**

- Övladlığa verilmə mexanizmləri mövcuddur. Bu mexanizmlər getdikcə sadələşdirilir. Bu səbəblə ki ailələrdə böyüyəcək uşaqlar daha çox olsun. Mexanizmin sadələşməsi o demək deyil ki, kim müraciət edir, həmən qəbul edilir, ona övladlığa uşaq verilir. Burada uşağın böyüyəcəyi ailə, valideyn olmağa iddialı şəxslər barədə məlumatların əldə edilməsi, məlumatların bir bazada toplanması, uşağın böyüyəcəyi ortamın öyrənilməsi, sənədləşmə işinin asanlaşması nəzərdə tutulur. Necə ki, övladlığa verilmədə əsas hədəf uşaqların ailə daxilində böyüməsi, daha çox uşağın ailəyə sahib olmasıdır, eləcə də "Himayədar ailə" modelində də əsas hədəf budur; uşaqlar ailə ortamında böyüsün, inkişaf etsin, təhsil alsın, yarımçıq deyil, tam ailələrdə cəmiyyət üçün yararlı vətəndaş olaraq yetişsinlər. Dövlətimiz heç bir uşağı kimsəsiz, arxa-dayaqsız qoymur. Ölkədə körpələr evi də, uşaq evləri də var, sığınacaqlar da. Amma dövlətin başlıca məqsədi uşaqların məhz ailələrdə böyüməsini, hər bir uşağın (mümkün olduğu qədər) ailəyə sahib olmasıdır. Bəli, uşaq evləri dövlətin himayəsi altındadır, hər cür təminatı da var. Lakin nə qədər təminat olsa da, səmimi, mehriban münasibət göstərilsə də, uşaq evi ailə deyil. Ailənin verə biləcəyini uşaq evi verə bilməz. Daha çox uşaq ailəyə sahib olsun, ailə ortamında böyüsün deyə, müxtəlif işlər həyata keçirilir. Onlardan biri də "Himayədar ailə" qayğı modelidir.

M.Zeynalova qeyd etdi ki, övladlığa götürmə ilə himayədar ailə fərqlidir:

- Himayədar ailədə böyüyən uşaqların valideynləri ola bilər. Bəlkə valideynlik hüququ alınmış şəxslərdir, bilirik ki, belə hallar olur, uşaqlar baxımsız qaldıqda, valideynləri tərəfindən uşağa işgəncə verildikdə və sair hallarda. Ola bilər valideyn cəzaçəkmə müəssisəsində olsun və uşaq himayədar ailəyə verilsin. Himayədar ailə uşağın təhsil almasını təmin edən, digər qayğılarını qarşılayan, onunla bağlı qərarların qəbulunda iştirak edəndir. Himayədar ailə uşağın soyadını dəyişmir, uşaq bioloji valideynlərinin soyadında qalır. Yəni bu ailə uşağı himayə edir, onun normal şərtlər daxilində yaşamasını, əqli, fiziki inkişafını təmin edəcəyini üzərinə götürür. Əlbəttə, himayədar ailə olmaq üçün də müəyyən şərtlər var ki, onlara əməl edilməlidir. Himayədar ailə olmaq istəyənlər təlimlərə cəlb edilir, müxtəlif testlərdən keçirilirlər. Avropa ölkələrində himayədar ailə modeli işləkdir. Belə ailələrə çox rast gəlinir. Hətta bəzən valideynlər özləri övladlarını himayədar ailələrə təhvil verirlər, uşağın gələcəyini düşünərək. Beynəlxalq təcrübədə bu var. Bizim ölkəmizdə ənənələr bir qədər fərqlidir. Bizdə də belə hallar olurdu, amma fərqli tərzdə. Kimsə övladını maddi vəziyyəti, sosial statusu yüksək olan yaxın qohumuna, bəzən qardaşına, əmisi, dayısına... həvalə edirdi. Ki, övladı təhsil alsın, müəyyən peşəyə, ixtisasa yiyələnsin. Başqa bir ortamda böyüsün, inkişaf etsin, deyə. Müsbət haldır ki, nazirlik valideyn himayəsindən məhrum, yaxud uyğun ortamda böyümək imkanı məhdud olan uşaqlar üçün "Himayədar ailə" qayğı modelini tətbiq etməyi düşünür. Bu model daha çox uşağın ailəyə sahib olmasını təmin edər.

**Məlahət Rzayeva**

# Türkiyədə zəlzələ bölgəsində 61 722 bina söküləcək




**Türkiyədə zəlzələ bölgəsində 61 722 bina yaşayış üçün tamamilə yararsız olduğu üçün söküləcək. "Report" "TRT Haber"ə istinadən xəbər verir ki, bu, ölkənin Ətraf Mühit, Şəhərsalma və İqlim Dəyişikliyi Nazirliyinin apardığı monitorinq nəticəsində məlum olub.**

Məlumata görə, 13 917 bina orta dərəcədə zədələnib.

Zəlzələ bölgələrində binalara dəyən zərərin qiymətləndirilməsi işləri davam edir.

*Qeyd edək ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonunda olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək 4000-ə yaxın afterşok qeydə alınıb. İki zəlzələ həmçinin Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə hiss edilib. Təbii fəlakət Türkiyə və Suriyada böyük dağıntı və onminlərlə itkiyə səbəb olub. Son məlumatlara görə, zəlzələ nəticəsində Türkiyədə 36 187 nəfər dünyasını dəyişib, 108 068 nəfər yaralanıb. Türkiyənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub. Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb. Zəlzələdən dərhal sonra Azərbaycanda qardaş ölkə üçün yardım toplanmasına başlanılıb.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”



# Ağdam dirçəlir

## Dövlət tərəfindən kifayət qədər vəsait ayrılıb

**44 günlük Vətən müharibəsində işğaldan azad olunan ərazilərdə dağıdılan infrastrukturun, şəhər və kəndlərin bərpası, köçkünlərin doğma yerlərinə qaytarılması üçün dövlət tərəfindən qısa müddətdə bütün imkanlardan istifadə edilir. Dövlət tərəfindən ”Böyük Qayıdış” planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər olunub.**

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri ölkəmizin iqtisadi imkanlarının təqdimatıdır. Azad edilmiş şəhərlərimizin, kəndlərin Baş planları hazırlanır. Bütün işlər məhz bu plan əsasında görülür. ”Böyük Qayıdış”ı daha da sürətləndirmək, bütün işləri vaxtında, eyni zamanda, yüksək keyfiyyətlə görmək əsas hədəflər sırasındadır.

Qeyd edək ki, ”Böyük Qayıdış” proqramı çərçivəsində görüləcək işlərin ictimaiyyətə təqdimatı məqsədilə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Ağdam şəhərində Konfrans Mərkəzində Şəhərsalma üzrə işçi qrupunun növbəti iclası keçirilib.

Tədbirdə Qarabağda, eləcə də Ağdamda bərpa ediləcək yaşayış məskənlərinin layihələri barədə, o cümlədən, daxili yolların, küçələrin, yaşayış məntəqələrinin enerji və su ilə təminatı üzrə işlərin vəziyyəti barədə layihələrdən danışılıb.

İclasda Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birinci müavini Namiq Hümmətov ”Böyük Qayıdış” prosesinə bütün dövlət qurumlarının səfərbər olmasının vacibliyinə toxunub: ”İşçi qruplarda təmsil olunan qurumlar daha fəal və səfərbər olmalıdırlar. İşğaldan azad edilən ərazilərdə bütün infrastruktur bərpa edilməlidir. Hazırda Ağdamda bir neçə layihənin icrasına başlanılıb. Amma 2023-cü ildən Ağdamdan başqa digər işğaldan azad olunmuş ərazilərdə bərpa tədbirləri daha sürətlənməlidir. Ümid edirəm qarşıya qoyulmuş vacib tapşırıqlar yerinə yetiriləcək”.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov isə düşmən tərəfindən 8 şəhərimizin yerlə-yeksan edildiyini və hazırda həmin şəhərlərin Baş planları üzrə yeni infrastruktur qurulduğunu deyib.

Onun sözlərinə görə, azad edilmiş ərazilərdə yenidən bərpa ediləcək şəhərlərdə əvvəlki küçələr daha olmayacaq: ”Yeni küçələr və küçə adları olacaq. Ağdamda bu məsələ ilə bağlı layihə dövlət başçısına təqdim olunub. Torpaq islahatı ilə bağlı işlər davam etməkdədir. İnsanlar köçdükcə vacib məsələ torpaq məsələsidir ki, bu yanaşmalarda beynəlxalq təcrübələr öyrənilir. Bu ayın sonunda İsrail və Türkiyəyə səfərlər olacaq. Məqsəd oradakı islahat təcrübəsinin öyrənilməsidir. Ailələrin məşğulluq məsələləri xüsusi olaraq nəzərə alınmalıdır. Digər məsələ də özəl investisiyaların cəlb olunmasına diqqət yetirilməlidir. Bu sahədə müəyyən suallar var. Etiraf edirəm. Sənədlərlə, xüsusən də çıxarışların verilməsi, icarə müqaviləsinin verilməsi, torpaq haqda sənədlərin verilməsi üzərində işləyirik. Əhalinin qayıdışında mina təhlükəsi hələ də qalmaqdadır”.

Ağdam şəhərində 5608 ev tikiləcəyini vurğulayan E.Hüseynov bildirib ki, qısa zamanda hər bir azərbaycanlıya işğaldan azad olunmuş ərazilərə səfər etmək qismət olacaq. Onun sözlərinə görə, Ermənistan fürsətləri əldən verməmək üçün qonşuları ilə səmimi münasibət qurmalıdır: ”Təbii ki, baş plan ilk olaraq Ağdamda təsdiq olunduğu üçün bir neçə və yeni pilot layihələr burada tətbiq edilir. Bu gün dövlətimiz öz vəsaiti hesabına Cənab Prezidentin tapşırığı ilə layihələndirilən bütün işlərə start verib və hətta bəzi işlər sürətini artırıb. 2026-cı ilə qədər bir çox iqtisadi hədəflər qarşınıza qoyulub. Həm Ağdam, Füzuli, Tərtər, Ağcabədi ərazilərində çoxsaylı infrastruktur layihələrinə başlanılıb. 20 ailənin köçürülməsi üzrə işlər sürətlənib. Ümumi olaraq cəmi 15999 ev tikilməsi nəzərdə tutulub. Ağdam şəhərində 5608 evin tikilməsi nəzərdə tutulur. Cənab Prezident tərəfindən təməli qoyulmuş layihələrin işçi qrupları hazırlanır”.

## Qısa müddətdə şəhərdə 5608 ev tikiləcək

O qeyd edib ki, Ağdamda 2 yaşayış məhəlləsinin layihələndirilməsi başlanılıb: ”Daha 2 layihə də nəzərdə tutulur. 2023-cü ildən bu layihələr hissə-hissə yerinə yetiriləcək. Dövlət tərəfindən kifayət qədər vəsait ayrılıb. Əfsuslar olsun ki, bərpa prosesində işçi qruplarda müəyyən problemlər olur. Sifarişçi qurumlar bunu nəzərə almalıdırlar. Ağdamda bəzi layihələrin nəticələrini ümidlə gözləyirik”.

**Emin Hüseynovun sözlərinə görə, vacib məsələ yol-kommunikasiya məsələlərinin qurulmasıdır:** ”Aidiyyəti təsərrüfat qurumlar tərəfindən təsdiqlənməlidir. Biz artıq Ağdam nümunəsini layihələndirmişik. Yeni nəsil qazanxana tipli və istilik sistemlərinin quraşdırılması nəzərdə tutulub. Bu, bütün layihələrdə nəzərə alınmalıdır. Biz fərqli yanaşmaları tətbiq edirik”.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Ağdam şəhərində keçirilən Şəhərsalma üzrə işçi qrupunun növbəti iclasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi Əlyar Təmirov deyib ki, Füzuli və Ağdam ərazisində avtovağzalların qurulması işləri gedir: ”203 ədəd baza stansiyası quraşdırılıb. Ağdam rayonu üzrə 12 ədəd baza stansiya hazırda istifadəyə verilib. Qarabağ üzrə 7 baza stansiyaları ümumi enerjiyə qoşulub. Ərazidə enerji ilə problemlər qalmaqdadır. Füzulidə MİDA-nın hazırlayacağı bina ilə bağlı layihələndirmə davam edir”.

Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təşkilatçılığı ilə Ağdam şəhərində keçirilən Şəhərsalma üzrə işçi qrupunun növbəti iclasında ”Azərişıq” ASC-nin nümayəndəsi Vüsal Qəmbərov deyib ki, Ağdamda 35 kV-luq 4x2500 kVA gücündə 2 ədəd Transformator yarımstansiyasının tikintisi, 35 kV-luq kabel xətlərinin çəkilməsi nəzərdə tutulur. O bildirib ki, xətlərin çəkilməsi üçün yolların şəhərsalma planına uyğun olaraq vahid səviyyəyə gətirilməsi gözlənilir. Yarımstansiya binasında tikinti işləri yekunlaşdırılır. Avadanlıqlar və kabel sifariş olunub.

Şəhərsalma Məsələləri üzrə İşçi Qrupun Ağdamda keçirilən iclasında ”Azərsu” ASC-nin Planlaşdırma və Layihələndirmə Departamentinin rəisi Bahadur Kəngərli bildirib ki, Ağdam şəhərinin Baş Planına uyğun olaraq burada 190 kilometr uzunluğunda küçə şəbəkəsinin su təchizatı, tullantı və yağış suları şəbəkələri layihələndirilib, texniki ekspertizadan keçirilib: ”Layihələndirməni bir neçə mərhələdə icra etmişik - bunlar şəhər şəbəkələri, daxili və şəhərdən kənar su təchizatı sistemi və tullantı sutəmizləyici qurğuları, kollektorlardır. Həmçinin bu gün sutəmizləyici qurğular ilə bağlı işlər layihələndirilir”.

**Sözügedən müzakirələri və ümumilikdə yenidənqurma prosesini dəyərləndirən politoloq İlyas Hüseynovun sözlərinə görə, dayanıqlı inkişafı və keçmiş məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdışını təmin etmək hazırda Azərbaycan dövlətinin əsas prioritetlərindəndir. Ölkə başçısı da öz çıxışlarında tez-tez bu məsələyə toxunur:** ””Böyük Qayıdış” konsepsiyası çərçivəsində addımların atılması ictimai rəydə də çox pozitiv əhval-ruhiyyə formalaşdırır. Çünki biz uzun illər tarixi torpaqlarımıza qayıdışı arzulayan bir xalqıq. Artıq bu arzular reallaşıb və keçmiş məcburi köçkünlərimizin öz yurdlarına qayıtması böyük bir tarixi hadisəyə çevriləcək. Düşünürəm ki, biz bu çətin missiyanın öhdəsindən də uğurla gələ biləcəyik. İki ildən artıqdır ki, işğaldan azad olunmuş Qarabağda əsaslı quruculuq işləri tam sürətlə davam edir. Erməni vandalizminin qurbanı olan və 30 il müddətində viran qoyulan Qarabağ yenidən qurulur.

**Politoloqun fikrincə, otuz ilə yaxın müddət ərzində Azərbaycanın güclənməsi naminə aparılan uzaqgörən xarici siyasətin və görülən sistemli işlərin məntiqi davamı işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə ”Böyük Qayıdış”ın təmin edilməsidir.** Ərazilərin bərpası və dayanıqlı inkişafı çərçivəsində qarşıya qoyulmuş hədəflərə nail olunması və Dövlət Proqramının icrasının optimallaşdırılması məqsədilə 5 illik dövrü əhatə edən Tədbirlər Planı əldə ediləcək nailiyyətlərin qiymətləndirilməsi üzrə nəticə indikatorlarının müəyyənləşdirilməsini, müvafiq tədbirlərin həyata keçirilməsinə nəzarətin daha effektiv təşkilini nəzərdə tutur. Ötən iki il ərzində azad edilən ərazilərdə bir sıra layihələr başa çatdırılıb, eyni zamanda yenilərinin təməli qoyulub. Hazırda da işğaldan azad olunan ərazilərdə görülən önəmli və fundamental işlər Azərbaycanın bu istiqamətdəki qüdrətini bir daha göstərir. Konkret olaraq Ağdam şəhərində həyata keçiriləcək bərpa işlərinin miqyasının kifayət qədər geniş olduğunu vurğulayan İ.Hüseynovun sözlərinə görə, güclü və məsuliyyətli dövlət olan Azərbaycan Vətən müharibəsində işğaldan azad edilən digər ərazilər kimi, Ağdamı da ayağa qaldırmaq, dirçəltmək əzmindədir: ”Postmüharibə dövründə xarabalıqlar üzərində yeni bir Ağdam ucaldılır. Dövlətimizin başçısına təqdim olunan Baş Plana istinadən deyə bilərik ki, yaxın perspektivdə ermənilərin miras qoyub getdikləri indiki dağıntıların, xarabalıqların yerində müasir infrastruktura, istirahət guşələrinə, turistyerləşdirmə obyektlərinə, rahat yaşayış evlərinə malik olan bir şəhər salınacaq”.

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Siqaret də bahalaşıb, spirtli içkilər də

## Ona görə son illər bu zərərli vərdişlərdən istifadəçilərin sayında azalma var

**Azərbaycanda istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların siyahısı təsdiqlənib. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara izahda qeyd olunur ki, dövlət tərəfindən kölgə iqtisadiyyatının miqyasının azaldılması, sahibkarlıq subyektlərinin şəffaf şəkildə fəaliyyət göstərməsi, habelə qanunsuz sahibkarlıqla mübarizə tədbirləri davamlı və ardıcıl olaraq həyata keçirilir. Həyata keçirilən bu tədbirlər müasir dövrdə informasiya texnologiyalarının aktiv şəkildə tətbiqini zəruri edib.**

Bu məqsədlə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat ”Track and Trace” (”Təqib və İzləmə”) sistemi yaradılıb və tətbiqin bu sistem vasitəsilə həyata keçirilməsi nəzərdə tutulur. Vahid Dövlət Avtomatlaşdırılmış Məlumat ”Track and Trace” (”Təqib və İzləmə”) sisteminin tətbiqi istehsaldan və idxaldan son istehlakçıyadək olan bütün dəyər zənciri üzrə aksiz markası ilə markalanmalı malların dövriyyəsinə nəzarəti həyata keçirməyə imkan verir ki, bu da öz növbəsində kölgə iqtisadiyyatının aradan qaldırılmasında, aksizli malların və aksiz markalarının saxtalaşdırılmasının qarşısının alınması ilə yanaşı istehlakçıların hüquqlarının qorunmasında da mühüm rola malikdir. ”Təqib və İzləmə” Sistemi dünyanın bir çox ölkələrində müəssisə və təşkilatlar üçün strateji prioritetə çevrilib. Belə ki, qeyd edilən Sistem təchizat zəncirlərinin təhlükəsizliyini və etibarlılığını yüksəldən həlləri işləyib hazırlamağa, rəqabətə davamlı mövqedə qalmağa imkan verir. Qərarda aksiz markası və məcburi nişanlanma tətbiq olunan malların siyahısı da verilib. Bura, içməli spirt (o cümlədən tərkibində 80 faizdən az spirt olmayan denaturlaşdırılmamış etil spirti; tərkibində 80 faizdən az spirt olan denaturlaşdırılmamış etil spirti), araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, konyak və konyak materialları, şampan şərabı, likör və likör məmulatları, şərab və şərab materialları, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli içkilər, energetik içkilər və tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan) daxildir. Məcburi nişanlanmalı olan mallar sırasında isə tütün məmulatları, elektron siqaretlər üçün maye, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, ”homogenləşdirilmiş” və ya ”bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlər, habelə qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün və tütün məhsulları, birdəfəlik istifadə üçün elektron siqaret, qəlyan və onların əvəzediciləri qeyd edilib.

**”Şərq”ə danışan iqtisadçı Fuad İbrahimov bildirdi ki, bu qərar adıçəkilən mal və məhsulların dövriyyəsinin uçotunun aparılmasını aktivləşdirmək və daha ciddi nəzarət həyata keçirmək məqsədi daşıyır:**

- Müəyyən mal və məhsulların aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmasının tələb edilməsi uçot və nəzarətlə yanaşı, həm də qeyri-qanuni istehsalın və vergidən yayınmaların qarşısının alınması üçündür. Aksiz markası olmayan məhsul, ya qaçaq maldır, ya da qanunsuz istehsaldır. Bunların qarşısını almaq üçün kompleks tədbirlər görülür, aksiz marka ilə markalanma və məcburi nişanlanma tələbi də bu tədbirlərə daxildir. Başqa bir məsələ, əhalinin sağlamlığına ziyan vuran məhsullardan daha az istifadəsini təşviq etməkdir. Məhsulun satışı üçün aksiz marka ilə markalanması tələb olunur. Aksiz markasında məhsulun yerli istehsal, yaxud idxal məhsul olduğu qeyd edilir. Bu markalanma üçün istehsalçı, yaxud idxalçı müəyyən miqdarda ödəmə həyata keçirməlidir. Hər məhsula görə ödəmə miqdarı fərqlidir. İstehsalçı, yaxud idxalçı aksiz markalanma üçün ödədiyi məbləği məhsulun satış qiymətinə əlavə edir. Bu, adi iqtisadi qaydadır. Ona görə də məhsulun qiyməti yüksəlir. Qiymətin yüksəlməsində spirtli içkilərin, tütün məmulatlarının idxal vergisinə, ƏDV-yə cəlb edilməsi də təsir edir. Hansısa zəruri tələbat malları ƏDV-dən azad edilsə də, spirtli içki və tütün məmulatlarına münasibətdə saxlanılır. Hökumət aksiz marka ilə markalanma tələb etməklə, dolayısıyla vətəndaşların bu məhsullardan çəkinməsinə yardım etmiş olur. Məsələn, son illərdə siqaret istifadəçilərinin sayında azalma olduğunu, siqaret çəkənlərin də günlük ”normanı” azaltdığına şahid oluruq. Niyə? Çünki siqaretin qiyməti bahalaşıb, həmçinin spirtli içkilərin də. Aksiz markalanma, nişanlanma tələbi bir tərəfdən dövlət büdcəsinə əlavə gəlirlərin daxil olmasını təmin edirsə, digər tərəfdən də əhalini ziyanlı, zərərli bir sıra məhsullardan çəkinməyə sövq edir.

**Məlahət Rzayeva**

# İslam dinində fərqli hökmlər var

## Qadın din xadimləri sadəcə, xanımlar üçün xidmət göstərə bilərlər



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, məscid və ziyarətgahlarda din xadimlərinin təyinatı ilə bağlı müsahibələr keçirilir.**

Onun sözlərinə görə, bu il 44 vakansiya çıxarılıb və onlardan 7-si qadınlar üçündür: ”Qadınlar din xadimi deyil. Qadınlar üçün vəzifənin adı dini ayinlərin icraçısıdır. Ümumiyyətlə məscid və ziyarətgahlarda 3 vəzifə müəyyənləşdirilib. Birincisi, imamdır, ikincisi, imam müavini, üçüncüsü, dini ayinlərin icraçısıdır. Bir də qadın dini ayinlərin icraçısı var. Qadınlar məscidlərdə imamların tapşırığına əsasən sırf qadınlara yönəlik fəaliyyətlə məşğul olurlar”. Sədr müavini deyib ki, Bakı, Sumqayıt, Lənkəran, Şəki, Quba, Zaqatala və Gəncədəki məscidlər üçün qadın dini ayinlərin icraçısı vəzifəsi üzrə müsahibələr fevralın 13-dən 15-nə qədər davam edib: ”Qadınların müsahibəsində 7 vakansiya üzrə 71 namizəd iştirak edib, onlardan 16-sı müsahibədən uğurla keçib. Qaydalara uyğun olaraq müsahibə bitdikdən sonra 30 iş günü ərzində təyinat alacaqlar”.

**İlahiyyatçı-alim Hacı Atif İsmayılov ”Şərq”ə bildirib ki, islam dinində bəzi hüquqlar əsasında qadınlarla kişilər arasında fərqli hökmlər irəli sürülüb.** Ekspertin sözlərinə görə, islam dininə əsasən, qadınlarla kişilərin birgə olması, qarışması bəyənilmir: ”Hətta məscidlərdə ibadət üçün toplaşsalar belə, şəriət qanunlarına uyğun olaraq, aralarında pərdə və ya hər hansı maneə olmalıdır. Yaxud qadınların kişilərdən geridə qalması üçün şərait yaradılmalıdır. Qadınlar ancaq qadınlardan ibarət camaata imamlıq edə bilər. Ölkəmizdə də adətən məscidlərin daxilində qadınların ibadət yeri kişilərdən ayrı olur. Bu kimi məsələləri asanlıqla tənzimləmək mümkündür. Lakin əsas məqsəd qadınların dini sahədə maariflənməsidir və bunun üçün mütləq şəkildə qadın din xadimlərinin olması zərururdir. Qadin din xadiminin olmasının islam dinində heç bir maneəsi yoxdur və onlar sadəcə, xanımlar üçün xidmət göstərə bilərlər. Ancaq yenə deyirəm, qadının ümumilikdə hansısa məsciddə kişilərə imamlıq etməsi dini baxımdan düzgün sayılmır. Hətta qadının öz evində qıldığı namazın savabının məsciddə qılınan namazın savabından daha üstün olduğu islami mətnlərdə qeyd edilir. Bu da qadınların daha qiymətli cövhər olması ilə əlaqələndirilir”.

**İsmayıl Qocayev**

# Həsən bəy Zərdabi şəxsiyyəti arxiv sənədlərində



**Ötən il Azərbaycanın böyük oğlu Həsən bəy Zərdabinin 180 yaşı tamam oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci il iyunun 4-də yubiley tədbirlərinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.**

Xalqımızın görkəmli oğlu Həsən bəy Səlim bəy oğlu Məlikov 1842-ci ilin iyulunda keçmiş Bakı quberniyasının Göyçay qəzasının Zərdab kəndində bəy ailəsində dünyaya göz açıb. H.Məlikov ilk təhsilini Zərdab kəndindəki mədrəsədə alıb, sonralar təhsilini Şamaxı qəza məktəbində davam etdirib.

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin "Bakı Ali 4 sinifli məktəb" adlı fondunda (f.313-də ) və digər fondlarında saxlanılan arxiv sənədlərində H.Məlikovun Şamaxı qəza məktəbində oxuduğu müddətdə özünü nümunəvi şagird kimi göstərdiyi qeyd olunur. Bu məktəbin 22 dekabr 1852-ci il tarixli qərarı ilə H.Məlikov tədrisdə əldə etdiyi müvəffəqiyyətlərə və tərbiyəsinə görə tərifnamə və kitablarla mükafatlandırılaraq məktəbin ikinci sinfinə keçirilir. Şamaxı qəza məktəbinin 24 noyabr 1854-cü il tarixli imtahan siyahısında H.Məlikovun Şamaxı ali dörd sinifli məktəbinin pansionuna daxil olması və onun həmin məktəbin 2-ci sinfində oxuması haqqında məlumatlar var. Qafqaz Tədris Dairəsinin Qəyyumu A.P.Nikolay 1854-cü ilin 20 dekabr tarixində məktəblərin Tiflis direksiyasının direktoru K.L.Çermaka göndərdiyi məktubunda bildirirdi ki, Şamaxı ali dörd sinifli məktəbin nəzdində yeni açılmış pansiona H.Məlikovun xəzinə hesabına qəbul edilməsinə onun tərəfindən icazə verilib. Həmin məktubda təklif edilirdi ki, şagirdlər pansiona bu təlim-tərbiyə ocağının açıldığı vaxtdan, yəni 13 noyabr 1854-cü ildən etibarən qəbul edilsinlər.

Arxiv sənədləri təsdiq edir ki, H.Məlikov elmin öyrənilməsinə və qarşısında duran vəzifələrin layiqincə öhdəsindən gəlməsinə hələ məktəb illərindən böyük diqqət yetirib. Məsələn, əgər Şamaxı ali dörd sinifli məktəbin 1854-cü il üzrə imtahan vərəqində H.Məlikovun bütün fənlərdən müvəffəqiyyəti 4-lə qiymətləndirilirdisə, artıq iki il sonra, 1856-cı ilə dair imtahan vərəqində onun həmin məktəbdə tədris olunan şəriət, rus dili, tatar (Azərbaycan) dili, riyaziyyat, coğrafiya, tarix, təbii elmlər, qanunşünaslıq üzrə tədris olunan fənlərdən qiymətləri əla olub.

1857-ci il iyunun 17-də Şamaxı ali dörd sinifli məktəbin müfəttişi D.İ.Kovalevski Tiflis Direksiyasına raport yazaraq H.Məlikovun Tiflis quberniya gimnaziyasına qəbul olunmasını xahiş edir. D.İ.Kovalevskinin həmin raportunda qeyd edilirdi: "Mənə həvalə edilmiş məktəbin pansionunda təlim-təhsilini xəzinə hesabına alan Həsən bəy Məlikov bu il burada təhsilini başa vurur. Təhsil aldığı bütün müddət ərzində Həsən bəy Məlikov əla tərbiyə və xüsusilə, yerli əhali arasında nadir rast gəlinən təhsilə olan böyük sevgisini nümayiş etdirərək böyük nailiyyətlər əldə edib və indi kursu bitirərkən o, öz təmayülünü başa düşərək bir gənc kimi çox təəssüflə bildirdi ki, məktəbdən çıxandan sonra təhsilini davam etdirə bilməyəcək və xidmətə başlamalı olacaqdır. Hazırda onun qardaşı Mehri bəy (Mehralı bəy-red.) ərizə ilə mənə müraciət edərək qardaşının təhsilini davam etdirmək arzusunda olduğunu bildirir və onun xəzinə hesabına Tiflis quberniya gimnaziyasına qəbul edilməsini məndən xahiş edir. Bildirirəm ki, mənim bu xahişimə sizin tərəfdən lütfkarlıqla diqqətin yetirilməsi rəhbərlik etdiyim məktəb üçün əhəmiyyətli olar, həmçinin yerli sakinlər şagirdlərin əldə etdikləri müvəffəqiyyətlərin onların, o cümlədən rəhbərliyin diqqətinə layiq olmuş, elmə çox gözəl və təmənnasız sevgi göstərən qabaqcıl müsəlman kimi Məlikovun qarşısında açılan yaxşı yolun canlı şahidi olardılar. Güman edirəm ki, H.Məlikov mənə tapşırılmış məktəbin kursunu bitirdikdən sonra asanlıqla gimnaziyanın 5-ci sinfinə qəbul oluna bilər. O ki qaldı burada tədris olunmayan fənlərə, rəhbərliyin icazəsi ilə həmin fənlərin burada da tədris olunması mümkündür.

Sizə bu yazılı məlumatı təqdim edərək tabeliyimdəki məktəb naminə qeyd olunan məsələ haqqında yuxarı rəhbər qarşısında xahişinizi əsirgəməməyinizi rica edirəm".

Təqdim olunan bu raportda H.Məlikovun təhsildə əldə etdiyi əla müvəffəqiyyətlərə görə onun M.Kazımbəyin müəllifi olduğu "Türk-tatar qrammatikası" və "A.Poqorelskinin əsəri" adlı kitablarla, həmçinin tərifnamə ilə mükafatlandırıldığı haqqında məlumatlar da var.

H.Məlikovun Tiflis quberniya gimnaziyası nəzdindəki Əsilzadələr pansionuna qəbul olunmasına icazə verildiyi haqqında da 1857-ci il noyabrın 5-də Tiflis Direksiyasının direktoru K.L.Çermakdan Şamaxı ali dörd sinifli məktəbin müfəttişi D.İ. Kovalevskiyə məlumat daxil olur. Həmin məlumatda qeyd edilirdi:" ... bu il Şamaxı 4 sinifli məktəbin təlim kursunu bitirən Həsən bəy Məlikov Qafqaz Tədris Dairəsi Qəyyumunun icazəsi ilə Tiflis quberniya gimnaziyası nəzdindəki pansiona qəbul olmaq üçün namizəd götürülsün; eyni zamanda sizin mənə ünvanladığınız 17 iyul 1857-ci il tarixli raportunuza cavab olaraq xahiş edirəm ki, adı çəkilən şagird sizin məktəbdə təhsil kursunu bitirdikdən sonra Tiflis quberniya gimnaziyası nəzdindəki Əsilzadələr pansionuna qəbul olunması üçün qohumları tərəfindən Tiflisə gətirilsin və onun pansionda müsəlmanlar üçün xəzinə hesabına vakansiya açılana qədər məktəblərin Tiflis direksiyasının iqtisadi məbləği hesabına müəssisənin öz xərcinə olan vakansiyaya yerləşdirilməsi təmin edilsin". Beləliklə, Həsən bəy Məlikov təhsilini Tiflis quberniya gimnaziyasında davam etdirdi.

1861-ci il fevralın 15-də H.Məlikova Tiflis quberniya gimnaziyasını bitirdiyi haqqında Attestat təqdim edilib. Tiflis quberniya gimnaziyasının direktoru Dementyev, müfəttişi Pençinski, gimnaziyanın əsas fənn müəllimlərinin imzası ilə tərtib edilən Attestatda Həsən bəy Məlikov haqqında aşağıdakı məlumatlar da qeyd edilib: "Təqdim olunan Həsən bəy Məlikov, praporşik Səlim bəy Məlikovun oğlu, on səkkiz yaşı vardır, məzhəbi müsəlmandır, sünnüdür, 1858-ci ildən etibarən Tiflis quberniya gimnaziyasında və onun nəzdindəki pansionda Tiflis Direksiyasının iqtisadi məbləği hesabına təhsil alıb və tam kursu 23 dekabr 1860-cı ildə bitirib. Oxuduğu bütün müddət ərzində tərbiyəsi əla olmaqla, mineralogiya-kafi, fizika kafi, digər əsas fənlərdən isə olduqca qənaətbəxş qiymətlər alıb." Tiflis quberniya gimnaziyasının Pedaqoji şurasının qərarı ilə Həsən bəy Məlikov Universitet təhsili almağa hazır və qadir olduğu bildirilirdi.

Həsən bəy Məlikov Moskva Universitetində riyaziyyat fakültəsində təhsilinə məsuliyyətlə yanaşaraq artıq 2-ci kursda gümüş medala layiq görülüb.

Həsən bəy Məlikov Moskva Universitetinin rektoru C.Barşev və Moskva Universitetinin fizika-riyaziyyat fakültəsinin dekanı A.Davidovun imzası ilə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsini bitirməsi haqqında 1865-ci il iyunun 25-də Attestat əldə edib. Həmin Attestatda o cümlədən qeyd edilirdi: "...Həsən bəy Məlikov Tiflis gimnaziyasını bitirdikdən sonra 1861-ci ilin avqustunda imtahansız Universitetin tələbələri siyahısına qəbul edilib, əla tərbiyə ilə Zaqafqaziya məmləkətinin hesabına fizika-riyaziyyat fakültəsinin təbii elmlər üzrə şöbənin kursunu əla müvəffəqiyyətlərlə bitirib, bu ilin iyunun 10-da keçirilmiş Universitet şurasının qərarı ilə namizədlik dərəcəsində təsdiq edilib...".

1869-cu il noyabrın 8-də Həsən bəy Məlikov Bakı real gimnaziyasında təbiətşünaslıq tarixi müəllimi vəzifəsinə təyin edilib. Həsən bəy Məlikov Bakı real məktəbində 20 noyabr 1878-ci ilədək fəaliyyət göstərib.

1871-ci il dekabrın 31-də Bakı real məktəbində riyaziyyat və təbiətşünaslıq tarixi müəllimi olan H.Məlikova Hakim senatın qərarı ilə mülkü rütbə adlarının ilklərindən sayılan kollej katibi adı verilib. Bu haqda Qafqaz Tədris Dairəsi Qəyyumu Y.M.Neverovun Məktəblərin Bakı Direksiyasının direktoru K.L.Çermaka göndərdiyi 31 dekabr 1871-ci il tarixli məlumatda qeyd edilib. 1873-cü il mayın 25-də məktəblərin Bakı Direksiyası Bakı Qubernatoru D.S. Staroselskiyə məktub göndərərək H.Məlikov tərəfindən azərbaycanca "Əkinçi" qəzetinin dərc edilməsinə tədris idarəsi tərəfindən heç bir maneçiliyin olmadığını bildirilib.

H.Məlikov 1872-ci ildə yoxsul və kimsəsiz şagirdlərə maddi yardım göstərmək məqsədilə "Cəmiyyəti-xeyriyyə" təşkil edib. Bakı real məktəbinin Pedaqoji Şurasının 24 sentyabr 1873-cü ildə keçirilən iclasında müsəlman şagirdlərə maddi yardım edən Cəmiyyətin rəhbəri olaraq H.Məlikovun həmin cəmiyyətin şagirdi olan Rəhim bəy Ağakişiyevin hazırlıq sinfinə qəbul edilməsi və Qəyyumun şəxsi icazəsi ilə təhsil haqqının ödənilməsindən azad edilməsi haqqında xahişi müzakirəyə çıxarılır və müsbət həll olunur. 1874-cü il martın 5-də Bakı real məktəbinin pedaqoji şurasının qərarı ilə Həsən bəy Zərdabi Pedaqoji şuranın katibi təyin edilib. Qafqaz canişini general-feldseyxmeyster Mixailin 24 dekabr 1874-cü ildə imzaladığı əmrə əsasən, əla xidmətinə görə Həsən bəy Məlikov 3-cü dərəcəli müdüqəddəs Anna ordeni ilə təltif edilir.

Bakı real məktəbinin Pedaqoji Şurasının 1877-ci il martın 31-də keçirilən iclasında H.Məlikovun növbəti üçillik şuranın katibi seçilməsi haqqında qərar qəbul edilib. H.Məlikov 1875-ci ildə milli-siyasi dirçəliş ideyalarının formalaşmasında mühüm rolu olan ilk anadilli "Əkinçi" qəzetinin nəşr olunmasına və həmin qəzetdə xalqımızın milli-siyasi oyanışı və ictimai təsəvvürü, iqtisadi inkişafına, mədəni yüksəlişinə yol açan məqalələr dərc etməyə başlayır. Lakin Həsən bəy belə məqalələr dərc etdikcə rəsmi dairələr onun fəaliyyətinə maneələr törədir və onun cəmiyyətdəki nüfuzuna, fəaliyyətinə zərbə vurmağa çalışırdılar. 1878-ci il noyabrın 11-də H.Məlikov Bakı real məktəbinin direktoru K.L.Çermaka müəllim vəzifəsindən azad edilməsi haqqında ərizə ilə müraciət edir. H.Zərdabinin həmin ərizəsində qeyd edilirdi:" Cari ilin noyabrın 9-da mənim qarşımda məktəbin yuxarı rəhbərliyi tərəfindən - Qafqaz Tədris Dairəsinin qəti surətdə edilmiş təklifi qoyuldu: - ya təzliklə Yekinodara gimnaziya nəzdindəki tərbiyəçi vəzifəsinə keçirilirsən, ya da ki, artıq məni Bakı real məktəbində müəllim vəzifəsində saxlamaq mümkün olmadığı üçün istefa verirsən. Evli olduğumu və ilin bu vaxtında başqa yerə köçməyimin mənim üçün qeyri-məqbul olduğunu, eləcə də aşağı vəzifəyə keçməyimin əlverişli olmadığını nəzərə alaraq mənə təklif olunan işi rədd edərək Bakı real məktəbinin müəllimi vəzifəsindən azad olunmağım haqqında ərizə ilə müraciət etməyə məcbur oldum".



1878-ci il noyabrın 20-də Qafqaz Tədris Dairəsinin dairə müfəttişi F.D.İlyaşenko Bakı real məktəbinin direktoruna Həsən bəy Zərdabinin xidmətdən azad edilməsi haqqında məlumat göndərir. Bakı real məktəbinin direktoru K.Çermak və kargüzar N.İvanovun 18 dekabr 1878-ci ildə imzaladığı Attestatda H.Məlikovun xidməti haqqında aşağıdakı məlumatlar qeyd edilib: "Bunu təqdim edən Bakı real məktəbinin keçmiş təbiətşünaslıq tarixi və riyaziyyat müəllimi, saray müşaviri Həsən bəy Məlikov müsəlman məzhəbli, 36 yaşı var, müsəlmanlar üçün 3-cü dərəcəli Müqəddəs Anna ordeninə malikdir, ildə 1380 rubl məvacib alıb. Mənzil kirəsi üçün 240, şuranın katibi vəzifəsi üzrə 120 rubl, sinif rəhbəri vəzifəsinə görə 160 rubl alıb. Bütün bunlar cəmi - 1900 rubl edir. Tərbiyəsini namizədlik dərəcəsi ilə İmperator Moskva Universitetində alıb. Zaqafqaziya sərhədçəkmə palatasının jurnal üzrə 20 sentyabr 1865-ci il tarixli təyinatına görə ştatdan kənar xidmətə qəbul edilib.

Bakı şəhərində müsəlman qızlara birsinifli məktəbin açılması üçün Həsən bəy Zərdabi 1896-cı il yanvarın 19-da Bakı qubernatoru V.P. Roqqeyə ərizə ilə müraciət edir. Onun həmin ərizəsində qeyd edilirdi: "Bakı şəhərində müsəlman qızlar üçün üçillik kursdan ibarət birsinifli məktəb açmaq arzusundayam və belə məktəbin açılmasına icazə verməyinizi xahiş edirəm." H.Məlikov müsəlman qızlar üçün açılacaq məktəbdə keçiriləcək dərslərin proqramını da hazırlayıb. Həmin proqrama uyğun olaraq məktəbdə müsəlman qızlara şəriət, Azərbaycan dili, rus dili, riyaziyyat, hüsnxət və əl işləri üzrə dərslərin tədris edilməsi nəzərdə tutulurdu.

Həsən bəy Zərdabinin milli dirçəliş ideyaları rəsmi hökumət dairələrində ciddi narazılıq yaratdı. Onun milli dirçəliş ideyaları hökumət məmurları nəzərində onu siyasi cəhətdən etibarsız adama çevirdi.

Göyçay qəza rəisi İ.F.Boqdanoviç Bakı qubernatoru V.P.Roqqeyə saray müşaviri Həsən bəy Zərdabinin adına tərtib etdiyi xasiyyətnamədə qeyd edirdi: "Bakı real məktəbinin keçmiş müəllimi, saray müşaviri H.Məlikov - yola getməyən, cəncəl xasiyyətli insandır və balıq vətəgələrinin polis nəzarətçisini təhqir etdiyinə görə iki həftəlik ev dustaqlığına məhkum edilib; siyasi baxımdan isə mənə etibar edilən qəzada yaşadığı müddətlərdə onun qəbahətli halına rast gəlinməyib".

1896-cı il fevralın 29-da Bakı Quberniya Jandarm İdarəsinin rəisi N.F.Fon-Frank H.Məlikovun xasiyyətini əks etdirən gizli məlumatını Bakı qubernatoru V.P.Roqqeyə göndərib: "Zərdab kəndinin sakini, saray müşaviri H.Məlikov, şəxsi maraqlarına görə əhalini iftiralara və uydurulmuş şikayətlərə təhrik edir, çünki qabaqcadan təyin edilən mükafatlara görə özü də bu cür təhriklərə və şikayətləri yazır, faktları təhrif olunmuş şəkildə mətbuata ötürərək xalqı narahat edir. Onun siyasi cəhətdən sədaqətli olduğunu demək olmaz".

Bakı şəhər Duması nəzdindəki Məktəb Komissiyasının üzvü Həsən bəy Məlikov Zərdabi 1898-ci il yanvarın 2-də rus-tatar məktəblərində Azərbaycan dili və şəriət dərslərinin bərpa edilməsi haqqında Bakı şəhər başçısının vəzifələrini icra edən M.A.Belyavskiyə ərizə ilə müraciət edir. Həmin ərizədə qeyd edilirdi: "Bizim şəhərin rus-tatar məktəbləri öz mövcudluğuna görə həmin məktəblərdə Azərbaycan dili və şəriət fənlərinin tədrisinə borcludurlar. Lakin təəssüflər olsun ki, son illərdə həmin fənlərə etinasız münasibət göstərilir, məsələn, bu fənlər üzrə illik imtahanlar keçirilmir, akademik ildə isə bu fənlər ümumiyyətlə tədris edilmir. Əsas fənlərə olan bu cür etinasızlığın yaxın gələcəkdə işin müvəffəqiyyətinə təsirsiz ötüşməyəcəyini nəzərə alaraq təklif edirəm: bu məktəblərdə 32 dərsə müəllim adına şəhadətnaməsi olan iki nəfər dəvət edilsin və onların qarşısında xəstəlik və ya digər səbələr ucbatından işə gəlməyən müəllimlərin əvəz olunması vəzifəsi qoyulmaqla digər müəllimlərin aldığı qədər məvacib ödənilsin. Son zamanlar yaşlı müsəlmanlar üçün axşam kurslarının açıldığını nəzərə alaraq müəllimlərin sayının bu cür artırılması vacib sayılır".

Bakı şəhər Duması nəzdindəki Məktəb Komissiyasının 7 fevral 1898-ci il tarixli iclasında rus-tatar məktəblərində Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsinə lazımi diqqətin yetirilmədiyi haqqında komissiyanın üzvü H.bəy Zərdabinin ərizəsinə baxılır və qərara alınır ki, bu məsələyə baxılması rus-tatar məktəblərinin pedaqoji şuralarının rəyləri alınanadək təxirə salınsın, komissiyanın müsəlman üzvlərindən xahiş edilsin ki, məktəblərdə Azərbaycan dili və şəriət dərslərinin tədris edilməsi ilə tanış olsunlar və onun nəticələrini komissiyaya məruzə etsinlər.

Bakı qubernatoru V.P.Roqqe 1898-ci il fevralın 28-də Şəhər İdarəsi nəzdindəki məktəb komissiyasının tərkibinin təsdiq olunduğu haqqında şəhər başçısının vəzifələrini icra edən M.A.Belyavskiyə məlumat göndərib. Həmin məlumatda qeyd edilirdi ki, şəhər duma üzvləri F.Vəzirov, A.X. Axundov, Ə.M.Topçubaşov, E.Y.Skibinski, V.Əlibəyov və H.Məlikovun Məktəb komissiyası üzvünün vəzifələrini icra etməsinə etirazım yoxdur.

1880-1890-cı illərdə Həsən bəyin Bakıda və Tiflisdə çıxan "Ziya", "Kəşkül", "Kaspi", "Novoye obozreniye" və digər qəzetlərdə Azərbaycan və rus dillərində çoxlu elmi-kütləvi məqalələri nəşr olunurdu. Həsən bəy Zərdabinin səpdiyi toxumlardan "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül", "Şərqi-Rus", "Həyat", "İrşad", "Molla Nəsrəddin", "Dəbistan", "İqbal", "Açıq söz" kimi mətbuat nümunələri "cücərib" pərvəriş tapdı. Dövrün tanınmış ictimai-siyasi xadimlərinin qəzet və jurnallarda təbliğ etdikləri ideyalar sayəsində milli dirçəliş, siyasi müstəqillik və dövlətçilik ideyaları formalaşdı. Qeyd olunmalıdır ki, 1903-1906-cı illər ərzində Azərbaycan ziyalılarının tribunasına çevrilən "Kaspi" qəzetinin 485-dən artıq nömrəsi H.b.Zərdabinin redaktorluğu ilə buraxılıb. Həsən bəy Məlikov (Zərdabi) ömrünün sonlarına yaxın Bakı Şəhər Dumasının maarif şöbəsində çalışıb.

Həsən bəy Məlikov 1907-ci il noyabrın 28-də vəfat edir və Köhnə Bibiheybət məscidinin yaxınlığında dəfn olunur. Tarixımizin sonrakı dövrlərində isə Həsən bəyin məzarı 1957-ci ildə Fəxri xiyabana köçürülüb.

**Rafiq Səfərov,**
**Milli Arxiv İdarəsinin Baş məsləhətçisi**

**Təbrik edirik!**



Bu gözəl qış çağında ad gününü qeyd edənlərdən biri də **Mahizər xanımdır.** Onu bu gün münasibətilə yaxınları, əzizləri və dostları təbrik edir. Ona mənalı həyat və xoşbəxt günlər dolu sağlam ömür arzu edirlər. **Ad günün mübarək!**

## Bəzi binalar təhlükə mənbəyidir

### Qanunsuz artırmalar edilən binaların çoxu istismar müddətini başa vurub



**Paytaxtdakı çoxmənzilli binalarda tez-tez qanunsuz artırmalara rast gəlirik. Belə hallar əsasən sovet dövründə tikilmiş binalarda müşahidə olunur.**

Məsələ ilə bağlı Trend-ə açıqlama verən daşınmaz əmlak eksperti Ramil Qasımzadə bildirib ki, qanunsuz artırmalar edilən binaların çoxu istismar müddətini başa vurub.

"Əgər həmin artırmalar aşağı mərtəbələrdədirsə, binaların konstruksiyasına zərər vermir. Lakin yuxarı mərtəbələrdəki qanunsuz əlavələr binaya ağırlıq salır, bünövrəsini zədələyir. Lakin bəzi qurumlar belə qeyri-qanuni tikililərə göz yumur", - R.Qasımzadə vurğulayıb.

**Ekspert bildirb ki, belə artırmalar ciddi təhlükə mənbəyidir:**

"Zəlzələ olan kimi həmin tikililər aşacaq, çünki heç bir memar rəyi nəzərə alınmayıb, konstruktorla işlənilməyib. Binalar tikilərkən müəyyən norma daxilində tikilir. Sonradan artırmalar isə əlavə yükdür. Təəssüf ki, belə hallara paytaxtın hər yerində rast gəlmək mümkündür. Əsasən də sakinlər mənzillərinin ümumi yaşayış sahəsini artırmaq məqsədi ilə eyvanlarını müxtəlif üsullarla irəli çəkirlər. Nəticədə həm ümumi görünüşə xələl gəlir, həm də binanın təhlükəsizliyi sual altında qalır. Yaşayış binasına əlavə dəyişiklik edilərsə, bunun üçün müvafiq qurumların rəyi olmalıdır", - deyə ekspert qeyd edib.

**Elan**

Milli Aviasiya Akademiyasının Fizika-Texnologiya fakültəsinin Elektrik və Elektronika mühəndisliyi ixtisasının 1-ci kurs tələbəsi Nağıyev Elvin Vidadi oğluna aid tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Elan**

Nəzərinizə çatdırırıq ki, biz "Gulf Velding Services Est" MMC şirkətini 10.02.2023-cü il tarixindən satmışıq. Tərəfimizdən bütün ödənişlər tamamlanmışdır. Kiminsə ödənişlə bağlı şikayət və təklifləri varsa göstərilən tarixdən 5 iş günü ərzində bizə müraciət edə bilər.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 443



## Maşında ilk atası əyləşdi

Türkiyəli iş adamı Sərvər Bəşirliyə avtomobil hədiyyə etdi



**Türkiyəli iş adamı qırmızı rəngli köhnə VAZ avtomobili ilə Türkiyəyə yardım kampaniyasına qoşularaq yorğan-döşək və digər ləvazimatlar aparan şəxsə avtomobil hədiyyə edib.**

Bu barədə məlumatı sosial şəbəkədə jurnalist Məhəmməd Türkmən paylaşıb.

Məlumata görə, Sərvər Türkiyədə olduğu üçün maşın atasına təhvil verilib.

## "Hər şey ürəyiniz qədər gözəl olsun"

Ogün Kaptanoğlunun paylaşması ürəkləri isitdi



**Kahramanmaraşın Pazarcık və Elbistan rayonlarında 10 vilayətdə dağıntılara səbəb olan zəlzələlərdən sonra axtarış-xilasetmə işləri davam edir.**

KİF komandası ilə Hataydakı fəaliyyətlərə aktyor Ogün Kaptanoğlu da qatılıb.

Bölgədə axtarış-xilasetmə işlərinə davam edən Ogün Kaptanoğlu, zəlzələdən sağ çıxan Zeynəb adlı uşaqla birlikdə iti üçün daxma tikdirib.

Daxma fotolarını sosial media hesabında yayımlayan aktyor "Zeynəb, dediyin kimi, o da üşüməsin!".

Kaptanoğlunun təsirli paylaşımını görən izləyiciləri "Hər şey ürəyiniz qədər gözəl olsun", "Gözəl ürəklər", "Fotolara baxanda titrədim. Ogün bəy, siz və sizin kimilər var olduğuna sevinirik" kimi şərhlər yazıb.

**Turan**

## Ölmez sağdır

17 yaşlı qız dağıntılar altından 248 saat sonra sağ çıxarılıb



**Türkiyədə baş verən zəlzələnin dağıdıcı təsirinə məruz qalan Kahramanmaraşda 17 yaşlı Aleyna Ölmez adlı qız dağıntılar altından 248 saat sonra sağ çıxarılıb.**

Anadolu agentliyi xəbər verir ki, möcüzəli qurtarış Dulkadiroğlu rayonunun Kayabaşı məhəlləsində qeydə alınıb. Xilas edilən qız xəstəxanaya yerləşdirilib.

Agentliyin məlumatına görə, əsrin fəlakəti adlandırılan zəlzələnin 6-cı günündən 11-ci gününədək dağıntılar altından azı 66 nəfər sağ çıxarılıb.



# Dədə-babalarımızın həsirinə qayıdırıq

## Polietilen torbaları həsir torbalarla əvəz edə bilərik

**Həsirçilik sənəti Azərbaycanda qədim tarixə malikdir. Cənub bölgəsi olan Masallı, Lənkəran və Astara rayonlarında indinin özündə də bu qədim xalq sənətini yaşadanlar var. Bölgədə hazırda elə ailələr var ki, gündəlik qazancını həsir toxumaqla çıxarır. 30 ildən çoxdur həsirçiliklə məşğul olan Lənkəran sakini Mirnaz Paşayeva kimi.**

Azərtac xəbər verir ki, həsir hələ qədimdən rütubətdən qorunmaq üçün ən yaxşı vasitələrdən biri hesab olunub. İnsanlar döşəməyə həsir sərməklə evlərdə rütubətin qarşısını alırlar. Buna görə də cənub bölgəsində həsirə tələbat böyükdür. Çünki bu bölgənin iqlimi rütubətlidir. Dədə-babalarımız həsirdən sərinkeş, soyuducu kimi, çəltik qurutmaq üçün də istifadə ediblər.

Lənkəranın Zövlə kənd sakini Mirnaz Paşayeva demək olar ki, hər gün həsirdən nə isə hazırlayır. Deyir ki, bu peşəni uşaq olanda anasından öyrənib. Deyir ki, həsir toxumaq üçün yaz-yay fəslində qamış toplanılır və iki həftə ərzində qurudulur. Bir həsir naxışından, çeşnisindən, uzunluq və enindən asılı olaraq 3-5 günə hazırlanır.

Qamışdan təkcə həsir deyil, eyni zamanda, müxtəlif növ zənbillər, tərəzilər, çantalar, papaqlar və digər əşyalar düzəldilir.





Lənkəran şəhər Mədəniyyət Mərkəzinin Zövlə kənd Sənətkarlıq evində gənclər bu sənəti böyük həvəslə öyrənirlər. Sənətkarlıq evinin rəhbəri Allahyar Əskərov bildirir ki, gənclər bu sənətin sirlərini öyrənməyə çox həvəslidirlər: "Həsirçilik həmişə bizdə ən gözəl sənət hesab olunub, bizim zonada geniş yayılıb. Bizdə rütubətə görə xalçalar da var. Amma daha çox həsirçiliyə üstünlük verirlər. Dərnək də yaratmışıq. Bura müraciət edənlərlə həftədə iki dəfə olmaqla, 2 saat məşğul oluruq. Gələnlər daha çox gənclərdir".

Əziyyətlə başa gələn həsirlərin qiymətləri elə də baha deyil. Məsələn, kiçik səbətlər 2 manata satılır. Böyük səbətləri isə 5 manata almaq mümkündür. Xüsusilə polietilen torbaları həsir zənbillərlə əvəzləyə bilərik. Bu zənbilləri həm uzun müddət istifadə etmək olur, həm də ekoloji cəhətdən təmizdir. Polietilen torbaların pulla satılmasından sonra bu zənbillərə tələbatın artacağı gözlənilir.



# İnəklərindən 2-si dağıntılar altındadır

## Ölməsin deyə sahibləri sürünərək heyvanı bəsləyirlər



**Adıyamanın Dardağan kəndində yaşayan Birgül və Əziz Tuncay cütlüyü evlərinin məlum zəlzələdə dağılmasına, ağır vəziyyətdə qalmalarına baxmayaraq, mal-qaralarına qulluğu axsatmamağa çalışırlar. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, mərkəzi Kahramanmaraş olan dağıdıcı zəlzələnin gətirdiyi fəlakət hər yerdə özünü göstərir.**

Heyvandarlıqla məşğul olan yerli sakinlər isə evləri dağlsa da, əşyasız qalsalar da, mal-qaraya qulluq etməkdən vaz keçmirlər. Birgül və Əziz Tuncay cütlüyünün də zəlzələdən öncə müəyyən təsərrüfatları olub. Tuncay ailəsinin evlərinin altı axur olub və burada 4 inək, 15 keçi, 30 toyuq bəsləyiblər. Zəlzələ baş verdiyində Tuncay ailəsi heyvanları axurdan çıxarmağa çalışıb. Amma hamısını çıxara bilməyiblər. 2 inək, keçilər və toyuqlar dağıntılar altında qalıb. İnəklərdən 2-si hələ də axurdadır. Dağıntılar var deyə, sahibi onları axurdan çıxara bilmir. Birgül Tuncay isə inəklər ac qalmasın deyə dağıntıların altıyla sürünərək inəklərə yem verir. Birgül Tuncay əlində yem dağıntılar altına sürünür "gəldim, Bircan, gəldim, qızım" deyərək inəyini şirin dillə çağırır. B.Tuncay heyvanlarını övlad kimi sevdiyini deyib: "Biz dağıntılardan canımızı qurtardıq. Amma heyvanlarımız tələf oldu. İnəyim hələ də axurda qalıb, onu çıxara bilmirik. Bu inək bizim çörəyimiz, südümüzdür. Dağıntılar altında bir dəlik tapıb ona yem, su aparıram. Qorxa-qorxa gedirəm, yemi, suyu verib tez çıxıram. Ölümü gözə alıram. Amma heyvana da yazığım gəlir, o da acdır, orda sıxışıb qalıb. Övladımız yoxdur, heyvanlarımızı övladlarımız kimi sevirik. Nə olar, kimsə bizə yardım etsin, heyvanı axurdan çıxaraq".

**Məlahət**

## Yaponiya adalarının sayı iki dəfə arta bilər



**Müntəzəm olaraq vulkanik hadisələrə və ekstremal hava şəraitinə məruz qalan 370 min kvadrat kilometrdən çox ərazisi olan Yaponiyada adaları saymaq asan deyil.**

Coğrafiyaçılar rəsmi statistikaya görə, 6852 olan adalar sayının əslində bundan qat-qat çox olduğunu bildiriblər.

Mediada yayılan xəbərlərə görə, Yaponiya Coğrafi İnformasiya Agentliyi rəqəmsal xəritələmə üsulundan istifadə edərək, siyahıyaalma nəticəsində cəmi 14 min 125 ada müəyyən edib. Bu, əvvəllər məlum olandan 7 min 273 çoxdur.

Nəticələrini yaxın bir neçə həftə ərzində açıqlayacaq hökumət qurumu Yaponiya torpaqlarının və ya ərazi sularının dəyişmə ehtimalının az olduğunu bildirib.

**Turan**

## Oğlunu sevindirdi

Taxtadan "Rolls-Royce" hazırladı



**Vyetnamlı bir kişi "Rolls-Royce" model avtomobilinin taxtadan hazırlanmış versiyasını təqdim edib. Lent.az bildirir ki, maşın 6 təkərdən ibarətdir və yığcam formadadır. Onu rahatlıqla idarə etmək mümkündür.**

Maşının daxili xüsusi diqqətlə hazırlanıb. Belə ki, salonu naxışlı oturacaqlardan və onlardan asanlıqla çıxarıla bilən baş dayaqlardan ibarətdir. Mərkəzi hissədə əşyalar üçün kiçik qutu var. Qutunun qapağı çox sadə və tez açılıb-bağlanan mexanizmə sahibdir. Həmçinin, avtomobil üçün işlək faralar və işıqlar düzəldilib. Onun kiçik elektrik mühərriki də var.

Avtomobili hazırlayan şəxs oğlu ilə birlikdə tez-tez şəhər ətrafında qısa səyahət edir. O, bu maşını oğlu üçün hazırladığını bildirib.

*Qeyd edək ki, yayımlanan 15 dəqiqəlik videoda sadə lövhələrdən tutmuş, yonulmuş ağacdan hazırlanmış "Spirit of Ecstasy" heykəlciyinin quraşdırılmasına qədər prosesin bütün mərhələləri göstərilir.*

## Acun Ilıcalı belə istəyib

**Ebru Gündeşlə Hadisə uzun aradan sonra eyni məkanda göründü**



**Xəbər verdiyimiz kimi, ötən gün Türkiyə, Azərbaycan və Şimali Kiprdə fəaliyyət göstərən televiziya və radio kanalları "Türkiyə tək ürək" adlı ortaq yayım ediblər.**

**Axşam.az xəbər verir ki, gecədə diqqət çəkən məqamlardan biri müğənnilər Ebru Gündeşlə Hadisənin eyni məkanda yer alması olub. "O səs Türkiyə" yarışmasında münsiflik edən ikili aralarında yaşanan qalmaqaldan sonra ilk dəfə eyni ortamda yer alıb.**

**Acun Ilıcalı sözügedən kampaniya çərçivəsində hər ikisinin yayında olmasını istəyib. İanələrin toplanmasına yardım edən və özü də 1 milyon lirə maddi kömək edən Ebru Gündeş yayımdan çıxan kimi Hadisə studiyaya giriş edib.**

**Qeyd edək ki, Hadisəninn Ebrunun keçmiş həyat yoldaşı Reza Zarrabla münasibətdə olduğu iddia ediləndən sonra aralarında qalmaqal yaşanıb. Bundan sonra Ebru onunla eyni verilişdə yer almaq istəməyib. Acun Hadisə ilə müqaviləni yeniləyərək onu "Rep Türkiyə" yarışmasında görmək istədiyini deyib.**

## 2 milyard dollar...

**Lotereyalar tarixinin ən böyük uduşunu Kaliforniya sakini qazandı**



**ABŞ-da "Powerball" lotereyasının 2 milyard dollarlıq ən böyük cekpotunun sahibinin adı bəlli olub. Azərtac "The New York Times" qəzetinə istinadla xəbər verir ki, Kaliforniya sakini Edvin Kastro uğurlu lotereya biletini ötən il noyabrın 7-də Los-Anceles yaxınlığındakı Altadene şəhərciyindəki yanacaqdoldurma məntəqəsində alıb. Həmin lotereyada altı düzgün rəqəmin seçilməsi şansı 292,2 milyonda birə bərabər olub.**

**O, uduşunu 30 il ərzində hissə-hissə tam almaqdansa, birdəfəlik 997,6 milyon dollar almağa üstünlük verib.**

**Bundan öncə "Powerball" lotereyasının cek-potu yalnız bir dəfə milyard dolları ötmüşdü. O zaman həmin uduş Kaliforniya, Florida və Tennessi ştatlarından olan bir neçə qalib arasında bölünmüşdü.**